# ADP Rusiya ilə gərginliyin artmasından narahatdır


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№06 (3345) 11 Fevral / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik


ANA XƏBƏR



## İran Trampın təyyarəsini vurmaq istəyib

# Rusiyanın Azərbaycandakı şəbəkəsi ifşa edildi

Siyahıda şok isimlər yer alır; aralarında sabiq məmurlar da var...

## Azərbaycan da İranla sərhədə hasar çəkməlidir?




13

GÜNÜN NƏBZİ

Müsahibə

## "İnsanın kim olduğu deyil, kim olmağa qərar verdiyi önəmlidir"



Sərkərdə Sərxanoğlu: "Bəzi insanlar talelərini öz əlləri ilə yazırlar"

8

Cəmiyyət

## Sahil Babayev nə üçün maliyyə naziri təyin edildi?

Xalqın durumu, düşdüyü vəziyyət Prezident İlham Əliyevə çatdırılmır?

4

Toplum

## Buzovna sakini dələduzluqla üzləşdiyini iddia edir

Qızqayıt Dadaşovadan DİN rəhbərinə və Baş prokurora müraciət

6

Xəbər

## Məktəb direktoru Əmək Müfəttişliyinin qərarını saymır

Direktor laborantın adından ərizə yaxıb, onun ştatını yarıya böldü, amma...

2

Aktual

## "Rəis və müavini oğluma həbsxanada işgəncə veriblər"

Binəqədi sakini Röya Nəsirova şikayətinə baxılmadığını iddia edir

7

Xəbər

## "Retems Group" dələduzluqda ittiham olunur



Şirkətin baş direktoru Orxan Musayev isə iddiaları qəbul etmir...

2

Siyasət

## ABŞ prezidentinin Azərbaycan üçün təhlükəli qərarı...



Qubad İbadoğlu: "Trampın siyasəti Azərbaycanda iqtisadi sabitliyin pozulmasına gətirib çıxara bilər"

9

Ölkə

## Min nəfər yaxın hərbi qulluqçu adından ölkə başçısına müraciət

"Dövlətin dəstək, qayğı, hörmət və ehtiramından kənarda qalmışıq"

Dövlət Sərhəd Xidməti (DSX) və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının min nəfərə yaxən hərbi qulluqçusu adından "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Aidiyyəti qurumlara müraciət edən şikayətçilər uzun illərdir mənzillə təmin olunmamalarına etiraz edirlər...

5

Xəbər

## Abşeronda xəstə çağırışçıları hərbiyə aparırlar

Tehran Babatovun kadrı Nuh deyir, peyğəmbər demir...

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindəki (SHXÇDX) neqativ hallar və bu halların cəmiyyətdə doğurduğu mənfi rezonans hər kəsə məlumdur. Hüquq-mühafizə orqanlarının bu qurumda apardığı çoxsaylı həbslərə baxamayaraq, hələ də SHXÇDX-də bir sıra arzuedilməz hallar müşahidə edilməkdədir. Sözügedən qurumun Abşeron rayon şöbəsində bu cür hallar daha çox diqqət çəkir...

2

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№06 (3345) 11 Fevral / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# Gürcüstanda "qadın yumurtası yetişdirən ferma" aşkarlandı



## 100-ə yaxın qadın qul kimi saxlanılıb, onlara hormonlar verilib və mal-qara kimi rəftar edilib

**Gürcüstanda “insan yumurtası ferması”nda 100-ə yaxın qadın qul kimi saxlanılıb, onlara hormonlar verilib və mal-qara kimi rəftar edilib.**

Stopnarkotik.az bildirir ki, bu barədə “Bild” yazıb. Nəşrə dəhşətli təcrübələr haqda altı aylıq istismardan sonra “yumurta mafiyası”nın caynağından azad edilən üç taylandlı qadın danışıb.

Qadınlar danışıblar ki, onları yumurtalarını qara bazarda satan çinli cinayətkarların başçılıq etdiyi kriminal qrupun Şərqi Avropa ölkəsi olan Gürcüstanda yerləşən “insan ferması”nda əsir saxlayıblar. Həmin qadınları Facebookda uşaq sahibi ola bilməyən gürcü cütlüklər üçün surroqat ana kimi işləmək üçün Ö11,500 ilə 17,000 avro (9,600 və ?14,100) arasında maaş vəd edən iş təklifi ilə aldadıblar. Qadınlar 2024-cü ilin avqustunda on digər Tayland qadını ilə birlikdə Gürcüstana aparılıb. Gediş xərclərini, eləcə də pasportların rəsmiləşdirilməsini kriminal qrup ödəyib və öz işçisi kimi onların səfərini təşkil edib. Lakin Gürcüstana çatanda onları yüzlərlə qadınla birlikdə dörd böyük evdə yerləşdiriblər və iş təklifinin sadəcə bir qurama fırıldaq olduğunu başa düşdülər. İşin əvəzində, qadınlara yumurtalıqlarını stimullaşdırmaq üçün hormonlar vurulub və ayda bir dəfə yumurtalarını çıxarmağa məcbur ediblər. Bunu bu həftə keçirdiyi mətbuat konfransında azad edilən qadınlardan biri deyib. O, onlara mal-qara kimi davranıldığını və bəzi qadınların yumurtalarına görə heç bir kompensasiya belə almadıqlarını söylədi. Əsirlərə deyilib ki, əgər onlar getmək istəsələr, əvvəlcə ferma sahiblərinə 2000 avro (1670 funt sterlinq) ödəməli olacaqlar. Yumurta fermasında işləyən keçmiş qullardan biri bu pulu ödəyərək azadlığını satın alıb, məsələ barədə “Tayland Uşaq və Qadınlara Yardım Fondu”nun təsisçisi Pavena Honqsakula deyib.

Əsir qadın xanım Pavenaya bildirib ki, bir neçə başqa Taylandlı qadın hələ də fermada köləlikdə saxlanılır, çünki onlar azadlığa çıxmaları üçün pul ödəyə bilmirlər.

“Bangkok Post” qəzetinin məlumatına görə, xanım Pavena bu həftə keçirdiyi mətbuat konfransında deyib ki, qadınlardan yığılan yumurtaların süni mayalanma üçün başqa ölkələrə satılıb. “Pavena Fondu” İnterpolla əməkdaşlıq edərək, fidyə ödənildikdən sonra yanvarın 30-da sərbəst buraxılan üç taylandlı qadını azad etməyə nail olub.

Hələ də “qadın yumurtası fermas--ı”nda neçə qadının saxlandığı məlum deyil.

Tailand səlahiyyətliləri ilə İnterpol məsələni araşdırmaya başlayıb və Tayland polisi işin gedişatına görə daha çox xilasetmə əməliyyatlarının mümkün olduğunu bildirib.

# Tehranda Amerikaya görə uzunqulaqlar döyüldü

**Dünən Tehranda İran inqilabının ildönümü ilə bağlı keçirilən tədbirlərdə aksiya iştirakçıları qoduqları döyüblər. Bu barədə sosial media şəbəkəsində məlumat və videolar yayılıb.**



Hökumət tərəfdarları Amerika, İsrail və Britaniya bayraqlarına bürüdülmüş qoduqları meydana gətirib, onlara qarşı zor tətbiq edib, yaralayıblar.

Bununla yanaşı, Məsud Pezeşkianın Azadiq meydanında Amerikaya qarşı səslədirdiyi bəyanatar fonunda Donald Tramp və Benyamin Netaniyahunun müqəvvaları dar ağacından asılıb, sonra yandırılıb.

Əyləncə səhifəsi

# Azərbaycanlı gəncin böyükü uğuru

## Xərçənglə bağlı tədqiqatına görə 200 min dollar qazandı



**Bakı Avropa Liseyinin 2009-cu il məzunu Dayaq Şeyxkərimli 2025-ci il üzrə kimyaterapiya preparatlarını birbaşa xərçəng hüceyrələrinə çatdırmaq üçün istifadə oluna biləcək yenilikçi və perspektivli tədqiqatlarına görə ”NRC HL Holmes” mükafatına layiq görülüb.**

İki ildən bir verilən 200 000 ABŞ dolları məbləğində olan mükafat doktor D.Şeyxkərimliyə iki il ərzində insan viruslarının xarici təbəqələrini əhatə edən bütün mövcud zülalların toxuma spesifikliyini xəritələndirmək və onların orqanizmdəki yerini izləmək üçün işlərini davam etdirməyə imkan verəcək.

D. Şeyxkərimli ”2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində 2010-2014-cü illərdə Toronto Universitetində molekulyar genetika və biotexnologiya ixtisasları üzrə bakalavr və maqistr dərəcəsi alıb. ”Sony Tədqiqat Mükafatı”, MITACS təqaüdü kimi mükafatlar və Osakadakı İnsan Metavers Təbabəti Əsaslı Tədqiqat İnstitutunda (PRIMe) beyin əlaqələrinin xəritələndirilməsi üçün genetik ştrix-kodların işlənib hazırlanması üzrə təqaüd də daxil olmaqla çoxsaylı mükafatlara layiq görülüb.

Dayaq Şeyxkərimli bu tədqiqatı Britaniya Kolumbiyası Universitetinin Biotibbi Mühəndislik Məktəbində (SBME) aparacaq. O, 2024-cü ilin aprel ayından etibarən həmin məktəbdə doktorantura sonrası (”post-doc”) elmi işçi kimi SBME professoru və Sintetik Biologiya üzrə Kanada Tədqiqatları kafedrasının rəhbəri doktor Nozomu Yachinin laboratoriyasında çalışır.

Şeyxkərimli molekulyar genetika üzrə doktorluq dissertasiyasını doktor Frederik Rothun rəhbərliyi altında müdafiə edib. Dissertasiya müddətində o, virus və insan zülalları arasında da daxil olmaqla, milyonlarla cüt zülalın qarşılıqlı təsirlərini xəritələndirmək üçün texnologiya hazırlayıb.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

“Hürriyyət” qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və “Futbol+ servis” mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Abşeronda xəstə çağırışçıları hərbiyə aparırlar

## Tehran Babatovun kadrı Nuh deyir, peyğəmbər demir...

**Səfəbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindəki (SHXÇDX) neqativ hallar və bu halların cəmiyyətdə doğurduğu mənfi rezonans hər kəsə məlumdur. Hüquq-mühafizə orqanlarının bu qurumda apardığı çoxsaylı həbslərə baxamayaraq, hələ də SHXÇDX-də bir sıra arzuedilməz hallar müşahidə edilməkdədir. Sözügedən qurumun Abşeron rayon şöbəsində bu cür hallar daha çox diqqət çəkir.**




Xidmətin son illər elektronallaşmasına baxmayaraq, SHXÇDX-nin Abşeron rayon şöbəsində süründürməçilik əvvəlki kimi davam edir. Həqiqi hərbi xidmətə getmək üçün müraciət edən çağırışçılar günlərlə şöbəyə ayaq döyməli, müxtəlif arayışlar almaq üçün fərqli qurumlara müraciət etməli olur. Bütün sənədlər toplanandan sonra da çağırışçıların hərbi xidmətə yola salınması üçün konkret vaxt təyin edilmir. Bu səbəbdən də eyni çağırşçı lazım oldu-olmadı hər gün SHXÇDX-nin Abşeron şöbəsinə gəlib-getməli olur.

Qurumun Abşeron təşkilatı ilə bağlı narahatlıq doğuran faktlardan biri də bəzi hallarda sağlamlığında ciddi pronlemlər olan şəxslərin də hərbi xidmətə göndərilməsidir ki, bu da həmin şəxslərin ailə üzvləri tərəfindən haqlı narazılıqla qarşılanır. Qeyd edək ki, cari ilin yanvar ayında da Xidmətin Abşeron təşkilatından sağlamlıq problemi olan bir neçə gənc həqiqi hərbi xidmətə göndərilib. Xəstə olduqları halda övladları xidmətə cəlb olunan valideynlər iddia edir ki, onların övladları kimlərinsə yerinə hərbi xidmətə göndərilir. Yəni, SHXÇDX Abşeron rayon şöbəsinin rəhbərliyi hansısa maraqlar konteksində müəyyən şəxsləri xidmətədn yayındıraraq onların yerini xəstə çağırışçılarla doldurur.

Maraqlı məqamlardan biri də odur ki, Xidmətin Abşeron rayon şöbəsinin rəisinin SHXÇDX-də yüksək vəzifə tutan keçmiş MTN-çi Tehran Babatovun himayəsində olduğu iddia olunur. Bildirilir ki, məhz bu səbəbdən şöbə rəisi özünü cəzasızlıq mühitində hiss edir və hər istəyini qorxusuz-hürküsüz reallaşdırır. O, açıaq şəkildə bildirir ki, arxasında Tehran Babatov dayanır və buna görə də nədənsə çəkinmək üçün əsas görmür.

Gələn dəfə Xidmətin Abşeron rayon şöbəsindən narazı olan bir neçə valideynin şikayətini diqqətinizə çatdıracağıq.

**Nazim Əliyev**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# "Retems Group" dələduzluqda ittiham olunur

## Şirkətin baş direktoru Orxan Musayev isə iddiaları qəbul etmir: "Biz bütün tədarükçülərimizin ödənişlərini etmişik"

**Samux rayonu, Poylu kənd sakini İsmayılov Akif İsmayıl oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, "Retems Group" şirkəti 3 ay əvvəl, o da daxil olmaqla, ümumilikdə 16 nəfərdən xurma alsa da, hələ də pulunu ödəmir. A.İsmayılov bu məsələdə şirkətin baş direktoru Orxan Musayevi şirkətin Ruslan, Natiq, Seyfəddin və Bəşir adlı işçilərini ittiham edir:**

"Mən, İsmayılov Akif İsmayıl oğlu, yazaraq bildirirəm



ki, "Retems Group" şirkətinin baş direktoru Musayev Orxan və işçiləri Ruslan, Natiq, Seyfəddin və Bəşir dələduzluqla məşğuldurlar. Belə ki, onlar məndən və tanıdığım digər 16 nəfərdən xurma alaraq, pulumuzu mənimsəmişdir.

Şirkət rəhbəri tək bizim kənddən yox, başqa rayonlardan olan sakinləri də bu cür aldadıb. Onlardan İbrahimov Samir Azər oğlu, Əhmədov Ramazan Məhərrəm oğlu, İsmayılov Hüseyn Qasım oğlu, Alıyev Tural Elşad oğlu, Vəliyev Fariz Mübariz oğlu, Bağırov Nəsrəddin Sadəddin oğlu və daha çox sayda aldadılan insanlar var.

Biz halal zəhmətlə qazanmaq üçün həyatimizdəki meyvələri satmaq istəmişik. Biz nə biləydik ki, bu şirkət fırıldaqçılıqla məşğuldur?!

Səlahiyyətli qurumlardan xahiş edirəm ki, məsələ ilə bağlı bizə kömək etsinlər. Polisə hələ müraciət etməmişik. Amma bu hərəkətləri ilə bizi məcbur edirlər ki, onları polisə şikayət edək".

"Retems Group" şirkətinin baş direktoru Orxan Musayev "Hürriyyət"ə bildirdi ki, sakinlərin pulunun ödənilməməsinə görə rəhbərlik etdiyi şirkət məsuliyyət daşımır:

"Bəli, biz şirkət olaraq xurma alışı ilə məşğuluq. Ola bilsin ki, adlarını çəkdiyiniz 16 nəfərin malı da bilavasitə bizə satılıb. Lakin biz bütün tədarükçülərimizin ödənişlərini etmişik. Yəni şirkətin heç bir tədarükçüsünə borcu yoxdur. Hansısa bir tədarükçümüz bu sakinlərin ödənişlərini çatdırmayıbsa, bu barədə xəbərimiz yoxdur".

Şikayətçinin qeyd etdiyi Ruslan adlı şəxs isə dedi ki, o, şirkətin nümayəndəsi deyil, fərdi çalışır, məhsulu alır və satır.

***P.S. Redaksiyamıza şikayət edən şəxslərdən biri isə vurğuladı ki, şirkətdən ona yaxın günlərdə ödəniş ediləcəyi bildirilib: "Dedilər ki, Bakıya gəlmə, səbrli ol, yaxında pulun veriləcək". Maraqlıdır ki, "Retems Group" şirkətinin baş direktoru Orxan Musayev isə bütün iddiaları rədd edərək, şirkətin kimsəyə borcu olmadığını deyir.***

***Onu da qeyd edim ki, yuxarıda adları çəkilən hər bir şəxslə əlaqə saxlamağa çalışdıq, lakin zənglərimiz cavabsız qaldı. Şikayətçilərin redaksiyamıza göndərdiyi səs yazılarından isə aydın olur ki, Orxan Musayev bu işi Ruslanın boynuna atır, qarşı tərəf isə "Orxan niyə belə deyir, başa düşmürəm", - deyə təccübünü bildirir.***

***Maraqlıdır, əgər belədirsə, bu insanların mənimsənilən pullarını kim qaytaracaq?***

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# Məktəb direktoru Əmək Müfəttişliyinin qərarını saymır

## Direktor laborantın adından ərizə yaxıb, onun ştatını yarıya böldü, amma...




**Şəki rayonu, Ə.Namazov adına Şəki kənd tam orta məktəbin müəllimi Novruzova Solmaz Seyidalı qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, çalışdığı məktəbin direktoru Əmək Müfəttişliyinin qərarına məhəl qoymur:**

"Mən, Novruzova Solmaz Seyidalı qızı, yazaraq sizdən xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, 2000-ci ildən Şəki rayonu, Ə.Namazov adına Şəki kənd tam orta məktəbində tam ştat olaraq kimya laborantı vəzifəsində işləyirəm. 2022-ci ildə siniflər azaldığına görə məktəbin direktoru Şadmanov Dağbəyi tərəfindən icazə və məlumatım olmadan tam ştatım bölünərək, yarısı



Azərbaycan Respublikası
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında
Dövlət Əmək Müfəttişliyi Xidməti
Şəki-Zaqatala regional şöbəsi

AZ 5500, Şəki şəhəri, M.F. Axundov pr. 56 A Tel/faks: (+994 024) (24) 4 16 35

28 sentyabr 2023-cü il

№3-17-5/2-N-37943/2023

Şəki rayon Şəki kənd sakini
Novruzova Solmaz Seydalı qızına

31.08.2023-cü il tarixli
3-17-5/1-N-25672/2023 nömrəli məktuba cavab

Sizin Şəki rayonu, Şəki kənd tam orta məktəbində əmək hüquqlarınızın puzulması ilə bağlı Dövlət Əmək Müfəttişliyi Xidmətinə daxil olmuş müraciətiniz Xidmətin Şəki-Zaqatala regional şöbəsində tərəfimizdən baxılmışdır. Müraciətinizlə bağlı Şəki rayonu Şəki kənd tam orta məktəbinə müvafiq sənədlərin təqdim edilməsi üçün sorğu məktubları göndərilmişdir.

Daxil olan sənədlərə əsasən aparılan araşdırma zamanı məlum oldu ki, siz 30 oktyabr 2000-ci il tarixli 130 nömrəli əmrlə Şəki rayonu Şəki kənd məktəbinə kimya laborantı vəzifəsinə işə qəbul edilmisiniz. Lakin sizinlə yazılı formada müddətsiz əmək müqaviləsi 02 oktyabr 2006-cı il tarixdə bağlanılaraq Əmək və Məşğulluq Alt sistemində qeydiyyata alınmışdır.

Sizin 2021-ci ilin oktyabr ayından xəbərdar edilmədən və razılığınız olmadan 1 ştat laborant işinizin 0,5 ştata azaldılması iddianızla bağlı Şəki kənd tam orta məktəbinin direktoru verdiyi izahatında 2021-2022-ci tədris ilinə qədər Şəki kənd tam orta məktəbində 17 sinif-komplekti və 1.5 ştat vahidi laborant ştatının olmasını, 2021-2022-ci tədris ilində məktəb üzrə sinif-komplektlərinin sayının 17-dən 15-ə endirildiyini və "Azərbaycan Respublikası dövlət ümumtəhsil məktəblərinin, leseylərin və gimnaziyaların nümunəvi ştatları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 may 1996-cı il 59 nömrəli qərarının tələblərinə əsasən (14-16 sinif-komplektinə 1 ştat vahidi labotant vəzifəsi ) 15 sinif komplektinə görə məktəb üzrə 0,5 ştat vahidi laborant ştatı azaldılmasını bildirmişdir. Məlumat üçün qeyd edirik ki, Azərbaycan Respublikasının Əmək



Məcəlləsinin 56-cı maddəsinin 2-ci bəndinə əsasən işəgötürən əmək şəraitinin şərtlərini dəyişdirməzdən azı bir ay əvvəl işçini yazılı məlumatı və ya əmri (sərəncamı) ilə xəbərdar etməlidir. Əgər işçi yeni əmək şəraiti ilə işi davam etdirməyə razılıq vermirsə, onda o, başqa vəzifəyə keçirilməli, bu mümkün olmadıqda isə əmək müqaviləsinə bu Məcəllənin 68-ci maddəsinin ikinci hissəsinin «c» bəndində nəzərdə tutulan əsasla xitam verilə bilər. Lakin əmək şəraitinin dəyişdirilməsi ilə bağlı məktəb direktoru yuxarıda qeyd olunan maddənin tələblərini icra etməmişdir. Direktor D. Şadmanov izahatında əmək müqaviləsi üzrə müəyyən olunmuş əmək şəraitinin şərtlərini dəyişdirərkən sizə xəbərdarlıq etmədiyini bir daha təsdiq etmişdir.

Həmçinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 46-cı maddəsinin 6-cı bəndinə əsasən əmək müqaviləsinə dəyişikliklər yalnız tərəflərin razılığı ilə edilir. Lakin Şəki rayonu, Şəki kənd tam orta məktəbinin direktoru Dağbəyi Şadmanov tərəfindən qeyd olunan maddənin tələbi pozularaq razılığınız alınmadan 28.09.2021-ci il tarixli 176 nömrəli əmrlə 1 ştat vahidi laborant işiniz 0.5 ştat vahidi azaldılmışdır. Nəticədə 2021-2022-ci tədris ilindən hal-hazırki dövrə qədər sizin əmək haqqınız düzgün hesablanmamış və ödənilməmişdir.

Qeyd edilənləri nəzərə alaraq Şəki rayon Şəki kənd tam orta məktəbin direktoru Şadmanov Dağbəyi Şadman oğlu tərəfimizdən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 192.4-cü maddəsinin (*İşçinin əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, əmək qanunvericiliyində nəzərdə tutulmuş müavinət və digər ödənişlərin hesablanmasında və ödənilməsində, riyazi hesablamalar nəticəsində yol verilən nöqsanlar istisna olmaqla, qanun pozuntularına yol verilməsinə görə*) tələbinə əsasən inzibati məsuliyyətə cəlb edilmişdir.

Həmçinin Hüquqlarınızın pozulması ilə bağlı əməkhaqqının qanunvericiliyə uyğun olaraq qısa müddət ərzində hesablanaraq ödənilməsi və nəticəsi barədə Dövlət Əmək Müfəttişliyi Xidmətinin Şəki-Zaqatala regional şöbəsinə məlumat verilməsi üçün Şəki-Zaqatala regional Təhsil İdarəsinə rəsmi göstəriş məktubu göndərilmişdir.

Müraciətinizdə qeyd etdiyiniz məsələlərlə əlaqədar aidiyyəti üzrə məhkəməyə müraciət etmək hüququnuz vardır.

Hörmətlə,

Rəis Akif Əliyev

başqa bir müəllimləyə verilmişdir. Bu işin baş tutması üçün isə o, mənim adımdan qeyri-qanuni formada ərizə yazmışdır.

Dəfələrlə Şəki-Zaqatala Regional Təhsil İdarəsinə, həmçinin Şəki rayon Təhsil Sektoruna yazılı formada müraciət etməyimə baxmayaraq, bu məsələ ilə bağlı heç bir köməklik göstərilməmişdir. 2023-ci ildə Şəki rayon regional Əmək Müfəttişliyinə ərizə ilə muraciət etdikdən sonra mənim lehimə qərar çıxardı. Əmək Müfəttişliyi daha sonra mənim ştatımın yenidən bərpa olunması və məhrum edildiyim əmək haqqının yenidən mənə ödənilməsinə dair da qərar verdi. Həmin qərarın Şəki rayon Təhsil Sektoruna göndərilməsinə baxmayaraq, məsələ ilə bağlı mənə heç bir köməklik göstərilmir". Solmaz Novruzovanın şikayəti ilə bağlı Şəki-Zaqatala Regional Təhsil İdarəsinin məsul əməkdaşı Mahal Məmmədovla əlaqə saxladıq. O, bildirdi ki, S.Novruzova çalışdığı quruma məktub edib və ona cavab məktubu göndərilib, direktor isə səhvinə görə Əmək Müfəttişliyi tərəfindən cərimələnib. "Sinif komplektlərində azalma olduğu üçün isə ştatın bərpası mümkün deyil", - deyə M.Məmədov bildirdi.

**Jalə FAMİLQIZI**

Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları 25dekabr 2024-cü ildə Azərbaycana məxsus mülki təyyarənin Rusiya səmasında vurulmasından sonra dövlət başçısının Rusiyaya qarşı irəli sürdüyü tələblərdən dolayı iki ölkə arasında yaranmış gərginliklərin yüksələn xətt üzrə davam etməsindən narahat olduğunu bildirib.



# ADP Rusiya ilə gərginliyin artmasından narahatdır

## Partiya hesab edir ki, Moskva Azərbaycanın tələblərinə etinasızlıq göstərdiyi halda, beynəlxalq komissiya yaradılması üçün hüqiqi addımlar atılmalıdır

Baş vermiş qəza ilə bağlı aparılan araşdırmaların istiqamətinin Rusiya üzərində cəmləşməsinə baxmayaraq, Kremlin hələ də məsələdən yayınması, rəsmi şəkildə üzr istənilməməsi, günahkarların cəzalandırılmaması, əksinə bu hadisədən sonra rus media resurslarında, rəsmi dairələrdə Azərbaycan əleyhinə kampaniyaların aparılması adı çəkilən ölkənin xoş niyyətindən xəbər vermir. Partiya yetkililəri bununla bağlı hakimiyyəti bu qəzanın müəllifi olan Rusiyaya qarşı irəli sürülən tələblərdə israrlı olmağa, Moskvanın üzərinə düşən öhdəlikləri yerinə yetirmək üçün prinsipiallıq göstərməyə və bu tələblərə etinasızlıq göstərildiyi halda beynəlxalq komissiya yaradılması üçün hüqiqi addımlar atmağa çağırıb.

İdarə Heyəti son vaxtlar Rusiyanın Azərbaycana qarşı əks-təbliğat işi aparması, bu dövlətin ərazisində yaşayan soydaşlarımıza polis zorakılığı göstərilməsi fonunda hakimiyyətin əks tədbirlər görməsi, Azərbaycanda agentura şəbəkəsinə çevrilən "Rus evi"nin bağlanması, rus mədəniyyət mərkəzlərinin üzərində nəzarətin gücləndirilməsi istiqamətində atdığı addımları təqdir edib və Rusiyanın imperialist iddialarının gerçəkləşməsinə xidmət edən bu strukturların fəaliyyətini durdurmağa, dövlət büdcəsi hesabına maliyyələşən rusdilli məktəblərinin özəl sektorla əvəzlənməsini həyata keçirməyə çağırıb.

İdarə Heyəti ABŞ-nin yeni prezidenti D.Trampın Qəzza əhalisini qonşu ərəb ölkələrinə köçürülməsi, bu bölgəni ABŞ-nin protektoratlığına verilməsi ilə bağlı səsləndirdiyi fikirləri qətiyyətlə pisləyib, bu cəhdin beynəlxalq hüququn ana prinsiplərinə zidd olduğunu, deportasiya xarakteri daşıdığını diqqətə çatdırıb və Yaxın Şərqdə yeni müharibə alovunun qızışmasına xidmət edən, terrora yol açan addım kimi dəyərləndirib.

İdarə Heyəti Rusiya ilə Ukrayna arasında davam edən müharibəyə bir daha münasibət bildirib, Rusiyanın sülh sizişi ilə bağlı irəli sürdüyü ağır şərtlərin yolverilməz olduğunu, bu şərtlərin Ukraynanın ərazi bütövlüyünün, suverenliyinin qəsdinə yönəldiyini diqqətə çatdırıb və dünyanın nüfuzlu dövlətlərini beynəlxalq hüququ saya salmayan Putin Rusiyanını bu qanlı müharibədən geri dudurmağa, ya da bu ölkə üzərinə daha ağır sanksiyalar tətbiq etməyə çağırıb.

İdarə Heyəti İranın Ermənistandakı səfiri M.Sübhanin Ermənistan baş naziri N.Paşinyanın iki ölkə arasında əldə edilən sülh sazişinə uyğun olaraq Zəngəzur dəhlizinin açılmasına etiraz etmədiyi barədə səsləndirdiyi fikirlərdən sonra, bunun əleyhinə bəyanatla çıxış etməsini qətiyyətlə pisləyib və bu addımın Ermənistanın daxili işlərinə qarışmaq cəhdi kimi dəyərləndirib. Partiya yetkililəri M.Sübhaninin bu yolun İran ərazisindən keçməsinə etiraz etməməsi ilə bağlı səsləndirdiyi fikirlərə də münasibət bildirib və bu halda adı çəkilən ölkənin Naxçıvana və əks istiqamətə daşınan yük və sərnişinlərin maneəsiz gedişgəlişinin İran tərəfindən təmin edilməsinin vacibliyi diqqətə çatdırılıb.

İdarə Heyəti son vaxtlar ölkədə bu və ya digər adlar altında çox sayda jurnalistlərin, siyasi aktivlərin həbs edilməsindən ciddi narahat olduğunu, bu faktın qonşu dövlətlər tərəfindən təhdidlərin artdığı bir zamanda vətəndaş həmrəyliyinə, milli birliyə xidmət etmədiyini bildirib və hakimiyyəti insan hüquq və azadlıqları, söz, mətbuat azadlığı ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə, həbs edilən jurnalistləri gözlənilən əfv siyahısına daxil etməyə çağırıb.

İdarə Heyəti son vaxtlar ölkəyə daxil olan və ya ölkəmizdə istehsal olunan tərkibi insan üçün zərərli olan, bir sıra vaxtı keçmiş mühüm qida, ərzaq mallarının əhaliyə satışından, insanların bu qidalardan müxtəlif ağır xəstəliklərə düçar olmasından ciddi narahat olduğunu bildirib və hakimiyyəti qida təhlükəsizliyi üzrə tədbirlər görməyə, əhaliyə bu cür zərərli, vaxtı keçmiş məhsulları satan şəxsləri və şirkət sahiblərini ciddi cəzalandırmağa, qanun qarşısında cavabdehliyini təmin etməyə çağırıb.

İdarə Heyəti son vaxtlar yaxın və uzaq dövlətlərdən Azərbaycana qarşı təhdidlərin, təxribatların intensiv xarakter almasından dolayı dövlətimizin bu təhdidləri neytrallaşdırmaq üçün öz xarici siyasətində böyük güc faktoru olan ABŞ ilə münasibətlərinə ağırlıq verməyə, qardaş Türkiyə, Pakistanla iqtisadi, siyasi, hərbi sferada daha irəli gedən bağlantılar qurmağa ehtiyac duyduğunu diqqətə çatdırıb.

**KƏNAN**

# Rusiyanın Azərbaycandakı şəbəkəsi ifşa edildi

## Mediada yayılan siyahıda şok isimlər yer alır...

**Məlum olduğu kimi, Rusiyanın "Rossotrudniçestvo" təşkilatının Azərbaycandakı nümayəndəliyinin fəaliyyəti dayandırılıb. Prosesin detallarına dərindən varmadan deyə bilərik ki, bu qurumun Azərbaycanda casus şəbəkəsi yaratmaqda ittiham olunması ictimaiyyətdə böyük maraq doğurub.**




Əslində, Rusiyanın Azərbaycanda belə bir şəbəkə qurduğu və onun vasitəsilə ictimai-siyasi proseslərə təsir göstərməyə çalışdığı bu günün söhbəti deyil. Zaman-zaman bəzi şəxslər Rusiyaya işləməkdə də ittiham olunublar, ən azından buna eyham vurulub.

Lakin "Qafqazinfo"ya daxil olan məlumat həqiqətən də belə bir şəbəkənin mövcud olduğuna heç bir şübhə yeri qoymur.

Əvvəla, qeyd edək ki, "Rus Evi" Bakının mərkəzində, Üzeyir Hacıbəyli küçəsində yerləşib. Bu yerin "Rus Evi" üçün təşkil olunması ilə bilavasitə Elçin Həsənov adlı iş adamı məşğul olub. Onun keçmiş gənclər və idman naziri Azad Rəhimovun qaynı olduğu deyilir.

Məsələnin maraqlı tərəfi də budur ki, "Rus Evi" həmin ünvandan çıxdıqdan sonra da Elçin Həsənov əl-ayağa düşərək "Rossotrudniçestvo"nun Bakı nümayəndəliyinin rəhbəri ilə birlikdə "Rus Evi"ə yeni ofis axtarışına çıxıb. Bir sözlə, E.Həsənov bu problemin həlli üçün bütün imkanlarını səfərbər edib və ciddi cəhdlə çalışır.

Azərbaycanda Rusiya şəbəkəsinə gəldikdə, artıq faktlarla da belə bir şəbəkənin mövcud olduğu təsdiqini tapıb. Şəbəkə üzvlərinin vaxtilə Bakı ətrafındakı yaşayış məntəqələrindən birində, bağda yığışdığı, yeyib-içmək məclislərinin təşkil olunduğu, sağlıqlar deyildiyi məlumdur. Şəbəkə Moskvadan təyin olunmuş və tez tez ölkəmizə gələn kəşfiyyat nümayəndəsi vasitəsilə idarə olunub.

Şəbəkəyə hamının yaxşı tanıdığı, Prezident Administrasiyasının keçmiş rəhbəri, özünü "boz kardinal" statusunda görən Ramiz Mehdiyev rəhbərlik edib. Qrupa həmçinin sabiq nazirlər Əbülfəz Qarayev, Azad Rəhimov, Elmar Məmmədyarov daxil olublar. Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudov da ara-sıra bu məclislərdə görünüb.

Bu şəxslərin indi vəzifədə olmaması o demək deyil ki, əlaqələr yoxa çıxıb. Hazırda da Rusiyanın kəşfiyyat nümayəndəsinin yanına gedənlər, ondan tapşırıqlar alaraq cəmiyyətimizə yanlış mesajlar ötürənlər, aranı qatmağa çalışanlar var. Amma bunlar yavaş-yavaş ifşa olunurlar və zamanla yeni faktların üzə çıxacağı istisna olunmamalıdır.

**Hazırladı: RƏŞAD**

# Sahil Babayev nə üçün maliyyə naziri təyin edildi?

## Xalqın durumu, düşdüyü vəziyyət Prezident İlham Əliyevə çatdırılmır?



**Səhiyyə, Fövqəladə Hallar, Ekologiya, Kənd təsərrüfatı və s. nazirliklərin fəaliyyəti ilə bağlı zaman-zaman mətbuatda narazılıqlara rast gəlmək olur. Amma istər mediada, istər də sosial şəbəkələrdə elə gün yoxdur ki, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri (keçmiş-müəl.) Sahil Babayevin adı çəkilməsin, yeddi arxa dönəni "yad olunmasın". Bu adam nazir təyin olunan gündən etibarən əlillik dərəcələrinin təyin edilməsi, pensiya, ünvanlı sosial yardım və digər müavinətlərin verilməsini çətinləşdirdi. Vəziyyət o həddə çatdı ki, bədəninin yarısından çoxu fəaliyyətsiz olan insanlar belə, əlillik dərəcəsiz almaq üçün sözün əsl mənasında rəsmi qurumların işgəncəsinə məruz qaldı. Amma...**

Əmması odur ki, Sahil Babayev bu xidmətlərinin qarşılığı olaraq, daha böyük posta - maliyyə naziri vəzifəsinə təyin edildi. Yəqin dəyərli oxucular da diqqət edib ki, bizim ölkəmizdə ən çox söyülən, ən çox qınaq obyektinə tuş gələn, bir sözlə, xalqın qanını içən məmurlar daha yüksək vəzifələrə gətirilir. Bu, həmçinin deputatlara da şamil olunur. Belə ki, 5 ildə bir dəfə seçici üzü görməyən, ən çox söyülən, təhqir olunan deputat illərlə Milli Məclisdə mürgü vurur.

Etiraf edim ki, dünən saytlarda və sosil şəbəkələrdə Sahil Babayevin Əmək və Əhalinin Sosial Müdafiəsi naziri vəzifəsindən azad edilməsi xəbəri, çoxsaylı vətəndaşlar kimi, bu sətirlərin müəllifini də qısamüddətli sevincə qərq etdi. Çünki, bir anlıq hər gün bu nazirlikdə haqsızlıqla üzləşən yüzlərlə vətəndaşımıza qarşı zülmə son qoyulacağını düşündüm. Hansı ki, gün ərzində onlarla bu kimi insan redaksiyamıza müraciət edir, qarşılaşdıqları haqsızlıqları dilə gətirirlər. O baxımdan, düşündük ki, yəqin Sahil Babayev illərdir insanlara zülm verdiyi, bir qarın çörəyə möhtac olan insanları rəzil günə saldığı, Azərbaycanın bütövlüyü uğrunda canından, qanından keçən qazilərin haqqına girərək onların pensiyasını kəsdiyi, həqiqi əlillərin əlilliyini əllərindən aldığı və s. üçün işdən azad olunub. Amma, biz saydığımızı sayaq, görün cənab Prezident nə saydı...

Əlbəttə, Sahil Babayevin maliyyə naziri təyin olunması kasıb-kusubun "qanını soraraq" büdcəni doldurmaq istiqamətində fəaliyyət göstərməsinin mükafatıdır. Deməli, bundan sonra da görəcəkləri günlərimiz qabaqdadır. S.Babayevin bu dəfə maliyyə naziri olaraq vətəndaşların başına daha hansı oyunları açağını tezliklə görəcəyik. Yəqin o, bu dəfə xalqa verilən qəpik-quruşun da "qeydinə qalaraq", onları da büdcəyə yönəldəcək...

Sahil Babayev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri işlədiyi müddətdə xalqı dövlətdən, hakimiyyətdən narazı salan əsas məmurlardan biri idi.

Şübhəsiz, bir gün gələcək, haqq yerini tapacaq. Bu gün ölkəmizdə ədalət tərəzisi yaxşı işləməsə də, bir gün ədalət mütləq bərqərar olacaq. İnanıram ki, Sahil Babayevin də "ədalət tərəzisi"nin bir gözünə qoyulacağı gün uzaqda deyil.

Ölkədə yoxsulluğun qarşısını almağa cavabdeh şəxslərdən biri olan bu adam gəldiyi gündən insanların ümidini param-parça etdi. Vətəndaşların sosial gəlirini kəsərək, cəmiyyəti rəzil günə qoydu, gənclərin həyatını məhv etdi, neçə-neçə qazinin ölümünə səbəb oldu, cinayətkarlığın sayını artırdı...

Bu səbəbdən, hər kəs Sahil Babayevin cəzalandırılacağı günü gözləsə də, bunun əksi olaraq, daha yüksək posta gətirildi. Məhz bu vəzifə dəyişikliyindəndən aydın olur ki, xalqın durumu, düşdüyü vəziyyət Prezident İlham Əliyevə olduğu kimi çatdırılmır. Çünki xalqın "Babayan" adlandırdığı bu nazirin əməllərindən ölkə başçısını xəbəri olsaydı, bəlkə də onu bu vəzifəyə layiq görməzdi.

**Jalə FAMİLQIZI**

# Mədəniyyətimizi düşünərkən...

**Qəribədir... İndiyəcən Azərbaycanın milli mədəniyyət konsepsiyası olmayıb və təəssüf ki, bu, bir həqiqətdir. Nədənsə, mədəniyyətə həmişə dar çərçivədən və yalnış baxış bucağından yanaşılıb. Bəlkə buna görədir ki, bu gün qüsurlu nəticə və mahiyyətlər labirintində ilişib qalmışıq...**



Eldəniz QULİYEV

## Hər bir xalqın, millətin, etnosun mədəniyyətinə onun mənəviyyatının tərkib hissəsi kimi baxmaq lazımdır

Azərbaycan zəngin və dəyərli mədəni irsə malikdirmi? Əlbəttə. Bizlər Nizamidən, Füzulidən, Nəsimidən üzü bəri, Şirvani, Axundov, Məmmədquluzadə, Sabir, Zərdabi, Hacıbəyov, eləcə də digər çoxsaylı yaradıcı, maarifpərvər, vətənpərvər, ləyaqətli şəxsiyyətlərin, alimlərin sayəsində böyük və qiymətli mədəni irs ehtiyatlarına sahiblənmişik.

Sual edirəm: Azərbaycan bu gün mədəni ölkədirmi və ya azərbaycanlıııar bu gün həqiqətənmi mədənidirlər, doğrudanmı onlar etik davranış qaydalarına əməl edirlər? Təəssüflər olsun ki, yox. Yaxşı, onda bu necə olan işdir ki, zəngin mədəni irsə malik olan bir millətin mədəni səviyyəsi bu gün... qənaətbəxş deyildir?.. İlk baxışda təzadlı səslənir, deyilmi? Əlbəttə, bunu müxtəlif səbəblərlə izah etmək olar, amma məncə, bu "səbəblər"dən ikisini xüsusi vurğulamaq lazımdır.

Əvvəla, yuxarıda qeyd etdiyim kimi, ortada hər hansı mədəniyyət konsepsiyası olmaması səbəbindən biz, zaman-zaman mədəniyyət anlayışını ancaq çalıb-oynamaq, oxumaqla, rəssamlıq, heykəltaraşlıq, tətbiqi sənət, kino, teatr və sair incəsənət növləri ilə məhdudlaşdırmışıq. Bu isə, öz növbəsində, ciddi yanılışlığa yol açmış və mədəniyyət anlayışının budanması, arıtdanması ilə nəticələnmişdir. İndi mədəniyyətin nə olduğunu kimdən soruşsan, şübhəsiz ki, mədəniyyətlə incəsənəti eyniləşdirəcək və öz-özlüyündə haqlı olduğunu düşünəcək. Əslində isə, bu, belə deyil; yəni mədəniyyət bildiyimizdən və qəbul etdiyimizdən daha geniş anlam daşıyıcısıdır. Belə ki, mədəniyyət anlayışı, incəsənət sahələrindən başqa, özündə - təhsil, səhiyyə mədəniyyətini, cəmiyyətin davranış qaydalarını, jurnalist və digər qələm sahiblərinin peşə etikasını, siyasi mədəniyyəti, o cümlədən sənaye, hətta istehsalat və kulinariya və sair mühüm sferaları ehtiva edir. Məncə, bu barədə daha ciddi düşünməyə dəyər...

İkincisi, nədənsə bu gün milli-mənəvi dəyərlər və mental keyfiyyətlər haqqında söhbət düşəndə bir çoxları ağız büzür... Sabahımızın müəyyən dərəcədə dünənimizdən asılı olmasını heç vəclə qəbul etmək istəmirlər. Bu, əlbəttə ki, kökündən səhv yanaşma və psevdo-kreativlik həvəskarlarının xətalı dünyagörüşlərindən irəli gəlir. Anlamaq istəmirlər ki, mənəvi-mental dəyərlər mənəvi və mental xüsusiyyətlərlə eyni məna yükü daşıyan anlamlar deyillər. Xüsusiyyətlər eyni ilə RƏY kimidir - istənilən vaxt onu dəyişmək olar. Dəyərlər isə FAKTdır, - onu, istəsən belə, dəyişmək, inkar etmək olmaz!

Və ən əsası: hər bir xalqın, millətin, etnosun mədəniyyətinə onun mənəviyyatının tərkib hissəsi kimi baxmaq lazımdı. Əks təqdirdə, yanlış labirintlər dəhlizində azıb-itmək təhlükəsi qaçılmaz olur.

Kim bilir, bəlkə elə bu səbəbdəndi ki, bu gün biz, qaynar tavaya düşmüş soyuq su damcısı kimi, cızdağımız çıxa-çıxa bu qədər problemlər, ağrı-acılar yaşamağa məhkum olunmuşuq?! Bəlkə məhz buna görədir ki, milli mədəniyyətin mahiyyətini sırtıq gülüş və həqarətlə dəyərləndirən bir sürü məmurun tapdağı altında haqqımızı, hüququmuzu, ruzimizi tələb etməkdən qorxur, çəkinirik?..

Əsil mədəniyyət "marqansovka" kimidi - bircə çimdiyi bir çən suyun rəngini dəyişir. Əsil mədəniyyətsizlik də eynən!.. Mədəniyyətə layiqincə və obyektiv qiymət verə bilsəydik, yəqin ki, ölkədə bu qədər ədalətsizlik, bu qədər siyasi və vicdan məhbusu da olmazdı. Bu qədər günahsız insan zindan həyatı yaşamazdı, bu qədər çətinliklərlə, əsassız qiymət artımları, məhrumiyyətlərlə, haqsızlıqlarla, yalan və riyakarlıqlarla üzləşməzdik. Çünki cəmiyyət, istər-istəməz, mədəniyyətdən süzülərək durulur, şəffaflaşır!..

Son olaraq, qeyd edim ki, mədəniyyət əbədi - ömür müvəqqətidir! Əbədi olan isə, özünə qarşı həmişə həssaslıq və hörmət tələb edir.

**Dövlət Sərhəd Xidməti (DSX) və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının min nəfərə yaxən hərbi qulluqçusu adından “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Aidiyyəti qurumlara müraciət edən şikayətçilər uzun illərdir mənzillə təmin olunmamalarına etiraz edirlər:**

# Min nəfərə yaxın hərbi qulluqçu adından ölkə başçısına müraciət



## “Dövlətin dəstək, qayğı, hörmət və ehtiramından kənarda qalmışıq”

“Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsi olan Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının ehtiyatda və istefada olan hərbi qulluqçuları olaraq, hazırkı müraciətimizlə bizim üçün həyati əhəmiyyət kəsb edən və artıq uzun müddətdir ki, ağrılı sosial problemə çevrilən mənzil təminatı ilə bağlı problemlərimizi diqqətinizə çatdırmaq istərdik.

İstər Dövlət Sərhəd Xidmətinin, istərsə də Daxili Qoşunların hərbi qulluqçuları dövətimizin ərazi bütövlüyü və suverenliyi yolunda qəhrəmancasına şəhid olmuş, bu gün də həmin qurumların sıralarında minlərlə əlil və Vətən müharibəsi iştirakçısı (müharibə veteranları), Azərbaycanın Milli Qəhrəmanları, Vətən Müharibəsi Qəhrəmanları, həmçinin müxtəlif orden və medallarla təltif edilmiş şəxslər vardır.

Belə ki, qüvvədə olan “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respub-likasının Qanununun 12-ci maddəsinə əsasən, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları mənzillə təmin olunmalı olduqları halda, bizlər uzun illərdir müvafiq icra hakimiyyəti orqanları (DİN və DSX) tərəfindən mənzillə təmin olunmuruq. Çoxsaylı müraciətlərimizə verilən oxşar, eyniməzmunlu (şablon xarakterli) cavablarda bildirirlər ki, ehtiyatda və istefada olan hərbi qulluqçular mənzillə təmin olunmalıdırlar, lakin mənzil tikintisi üçün Maliyyə Nazirliyi tərəfindən vəsait ayrılmadığından və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 noyabr tarixli, 1476 nömrəli Fərmanı Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hüquqlarını məhdudlaşdırdığından, bu kateqoriyadan olan ehtiyatda və istefada olan hərbi qulluqçuları mənzillə təmin edə bilmirik.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il, 15 noyabr tarixli, 1476 nömrəli Fərmanının Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularına münasibətdə tətbiq edilməməsi gənc nəsil arasında sərhədçi, həmçinin dövlətimizin konstitusiya quruluşunu qoruyacaq zabit peşəsinə marağı kəskin surətdə azaltmış (Bunu DSX-nin və DİN Daxili Qoşunlarının Ali Hərbi Məktəblərinə sənən verən abituriyentlərin sayına baxdıqda, asanlıqla görmək mümkündür), hərbi qulluqçuların qanunvericiliklə nəzərdə tutulmuş müddətdən əvvəl hərbi xidmətdən tərxis olunma dinamikası artmışdır ki, bu da çox mürəkkəb geostrateji regionda yerləşən dövlətimizin gələcək suverenliyi, ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı və konstitusiya quruluşu üçün ciddi risk hesab oluna bilər.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il, 15 noyabr tarixli, 1476 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə” Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli 569 nömrəli Fərmanında “Silahlı Qüvvələr” sözləri “Azərbaycan Ordusu” (yalnız Müdafiə Nazirliyi) sözləri ilə əvəz olunduqdan sonra həmin Fərmanın müddəaları bizələrə şamil edilmədi. Bununla, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının bütün ümidləri puç olmaqla yanaşı, hamının qanun qarşısında bərabərlik və ədalət prinsipləri kobud surətdə pozuldu.

Göründüyü kimi, bu gün Dövlət Sərhəd Xidməti və Daxili Qoşunların hərbi qulluqçularının mənzillə təminat məsələsində ayrı-seçkilik qoyulur. Silahlı Qüvvələrin tərkibində eyni statusa malik hərbi qurumların hərbi qulluqçuları olan DSX və DQ-nin hərbi qulluqçuları mənzillə təmin edilmirlər. Yalnız Azərbaycan Ordusunun (Müdafiə Nazirliyi) hərbi qulluqçuları mənzil novbəsinə qoyulurlar.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci (Bərabərlik hüququ), 26-cı (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi) və 71-ci (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) maddələrinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununun müddəaları rəhbər tutulmaqla Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 28 dekabr tarixli, 569 nömrəli Fərmanının Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularına münasibətdə də tətbiq olunmasını tələb edirik.

Maliyyə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin məlum Fərmanına əsasən yalnız Azərbaycan Ordusunu (Müdafiə Nazirliyi) hərbi qulluqçularının evlə təmin edilməsi, digər birləşmələrin hərbi qulluqçularının isə öz qurumlarından evlə təmin edilməsini qeyd edir.

“Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli, 569 nömrəli Fərmanının icrası ilə əlaqədar yalnız Müdafiə Nazirliyinin strukturunda 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuların mənzil təminatı qeyd edilib.

Dövlət Sərhəd Xidməti və Daxili Qoşunlar “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikasının Qanununun 12-ci maddəsinin 2-ci hissəsini əsas gətirərək, Silahlı Qüvvələrin ehtiyatında olan zabitlərin mənzillə təminatının Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının səlahiyyətləri çərçivəsində olmaması, mənzillə təmin edilməsi üçün yaşayış yeri üzrə qeydiyyata əsasən rayon İcra hakimiyyətinə və ya fərdi yaşayış evinin tikintisi üçün yerli bələdiyyələrə müraciət edilməsi, mənzil və ya torpaq sahəsi alınanadək Nazirlər Kabinetinin müəyyən etdiyi məbləğ və qaydada kirayə haqqının dövlət hesabına ödənilməsi göstərilmişdir.

Rayonların icra hakimiyyətləri bu və ya digər rayonda mənzil tikmək məqsədi ilə vəsait ayrılmadığını, rayonda ehtiyat mənzillərin olmadığını bildirir.

Bələdiyyələr isə torpaq sahələrinin olmamasını bildirirlər.

Cavablardan göründüyü kimi, bu günə qədər fərdi və ya kollektiv qaydada müraciət etdiyimiz qurumlar tərəfindən bizə dəqiq və dolğun cavab verilməmişdir. Beləliklə də, biz, suveren və müstəqil Vətəninə sadiq olan, ömrünün məhsuldar dövrünü ailəsi ilə birlikdə məişət şəraiti olmayan bölgələrdə ordu quruculuğuna sərf edən hərbi qulluqçular, “Hərbi qulluqçuların statusu haqqında” 25 dekabr 1991-ci il tarixli 36 nömrəli Azərbaycan Respublikasının Qanununun, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin, həmçinin “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə” Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli Fərmanın tələblərindən yararlanmır, dövlətin dəstək, qayğı, hörmət və ehtiramından kənarda qalmaqla sosial problemlərlə üzləşirik. Bu səbəblərdən də Silahlı Qüvvələrdən tərxis olunduqdan sonra bizim hansı yerdə mənzillə nə vaxt təmin olunacağımız bəlli deyil və bu, ciddi sual olaraq qalmaqdadır.

Ehtiyatda olan zabit-gizirlərin, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının (MAHHXHQ) bir qismi xidmətdə olduğu müddətdə evlə təmin edilmədiyi üçün, onlar məcbur qalaraq hərbi qulluqçulara verilən ipotekadan yararlanırlar. Təqaüddə olaraq yaşı ötmüş, səhhətində müəyyən problemlər olan həyətin aldığı pensiyasının yarı hissəsinin ipotekaya ödəməklə əziyyət çəkməsi, bugünkü dövrün böyük çətinliyi kimi qəbuledilməzdir. Bizimlə birgə əziyyət çəkən, ömür boyu kirayələrdə yaşayan ailə üzvlərimiz (ipoteka da -“mədəni formada qeydiyyata alınmış kirayə” deməkdir), aldıqları pensiyanı kirayə və ya ipotekaya ödəyir. Belə olan halda evsiz-eşiksiz hərbi qulluqçular nə etsin və mənzillə təmin edilməyimiz üçün kimə müraciət etməliyik?!”

Hərbi qulluqçular mənzil təminatı ilə bağlı aşağıdakıları təklif edirlər:

- Yuxarıda göstərilən və istinad edilən qanunlara, fərman və sərəncamlara əsasən pozulmuş hüquqlarımız bərpa edilməsi;
- 26 sentyabr 2016-cı ildə keçirilmiş Ümumxalq səsverməsində (Referendum) qəbul edilən “Azərbaycan Respublikasının Konstitutsiyasında dəyişikliklər edilməsi haqqında” Fərmana görə Azərbaycan Respublikasının Referendum Aktının 9-cu maddəsinin 1-ci bəndinə əsasən DSX və Daxili Qoşunların Silahlı Qüvvələrə aid edilməsi barədə Maliyyə və Müdafiə Nazirliklərinə yazılı göstərişlər verilməsi;
- “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə” Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli 569 nömrəli Fərmanına əsasən Maliyyə Nazirliyində yaradılmış Komissiyada Dövlət Sərhəd Xidməti və Daxili Qoşunlardan da səlahiyyətli nümayəndə təyin olunaraq bu qurumların hərbi qulluqçularının mənzil qeydiyyatına götürülməsi;
- DSX və Daxili Qoşunlarda 1992-ci ildən xidmətə başlayan və 20 təqvim ili və daha cox xidmət edən tərxis olunmuş hərbi qulluqçuların siyahısı aidiyyəti qurumlarda hazırlanmaqla Maliyyə Nazirliyinə göndərilməsi;
- Veriləcək mənzil olmadıqda əvəzinə birdəfəlik pul kompensasiyası ilə təmin edilməsi;
- Silahlı Qüvvələrin tərkib hissəsi sayılan hərbi birləşmələr tərəfindən təqaüddə olan h/q-ra pasport qeydiyyatına görə Rayon İcra Hakimiyyətləri tərəfindən mənzillərin tikintisi üçün vəsait ayrılması.
- “Əmək pensiyası haqqında” Azərbaycan Respublikasının Qanununun 20 maddəsinin 20.14 və 20.14.1-ci bəndlərinə uyğun hesablamada ayrı-seçkiliyə yol verilməsin. Yəni, Nazirlər Kabinetinin 01.07.2017-ci il tarixli 242 qərarına əsasən Müdafiə Nazirliyi istisna olmaqla, başqa silahlı birləşmələrin hərbi qulluqçuları üçün qulluq stajına görə əlavələrin hesablanmasında xidmət illərinə görə 3%-lə deyil, 2%-lə hesablanmasının ləğv edilməsi.

Sonda Prezident İlham Əliyevə müraciət edən hərbi qulluqçular xahiş edir ki, Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci (Bərabərlik hüququ), 26-cı(İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi) və 71-ci (İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı) maddələrinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununun müd-dəalarını rəhbər tutaraq, Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 28 dekabr tarixli, 569 nömrəli Fərmanının Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularına münasibətdə də tətbiq olunmasına, həmçinin müvafiq mərkəzi icra hakimiyyəti orqanları qarşısında ehtiyatda və istefada olan hərbi qulluq-çuların mənzillə təmin edilməsi istiqamətində qanunamüvafiq tədbirlərin həyata keçirilməsinə göstəriş versin.

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Aidiyyətu qurumların mövqeyini dərc etməyə hazırıq.***




# DSMF-nin saxtakarlığı

## Borclu XŞTMF-nin dövlətə, məhkəməyə, Konstitusiyaya hörmətsizliyi 22 aydır sürür

**Prezident 2025-ci ili Konstitusia və suverenlik ili elan edib. Ən azı, bu il ölkədə ən yüksək hüquqi qüvvəyə malik olan qanunun Konstitusiyanın qüvvədə olacağına böyük ümidlər var. Bəlkə onlarla illərdir icra olunmayan məhkəmə qərarlarının icrası təmin olunar, dövlətin ali məqsədinin insan və vətəndaş hüquqlarını qorumaq, vətəndaşa layiqli həyat səviyyəsinin təmin edilməsi yada düşər, məmurlar vicdansız davranışdan, özbaşınalıqdan əl çəkər. Di gəl, hələ də qanunun, Konstitusiyanın şahlığı yerinə, məmurların şahlığı ilə üz-üzəyik.**

Bu sətirlərin yazarının pensiyasına 1BİİM-in (hazırda Bakı İnzibati Məhkəməsi) 05.07.2017-ci il tarixli, 2-1(81)-1889/2017 N-li Qərarı (h. Elçin Məmmədov) ilə əlavə olunan 110 manatın verilməsini 6 il sonra 01.04.2023-cü ildən borclu DSMF-in Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı (XŞTMF) özbaşına dayandırıb. 22 aydır bu yekəlikdə özbaşınalığa, dövlətə, Konstitusiyaya hörmətsizliyə icra, qanunverici, məhkəmə hakimiyyəti, prokurorluq, Ombudsman , Hesablama Palatası ... son qoymaq istəmir, hərəsi "sosial rüşvət paketini" alıb susur.

Bakı İnzibati Məhkəməsində "İnzibati mübahisə üzrə 05.07.2017-ci il tarixli, 2-1(81)-1889/17 saylı Qərarın icrasının dayandırılmasından dəyən maddi-mənəvi ziyanın ödənilməsi" tələbi ilə borclu cavabdeh XŞTMF-yə qarşı (ötən ilin sonlarında) iddia qaldırılıb. İş üzrə 10.02.2025-ci ilə hazırlıq iclası təyin olunub. Elektron kabinetdə isə tələbkar qazinin iddia tələbinə borclu cavabdehin adından DSMF-in Məhkəmə Mübahisələri ilə iş üzrə Mərkəzi Filialının (departament müdiri Yeganə Məmmədova və baş mütəxəssis Gülnar Həzizadə) 06.02.2025-ci il tarixli 7 vərəqlik iddiaya aid olmayan etirazı yerləşdirilib. Bu etiraz bir daha borclu DSMF-in pensiya filialının özbaşınalığını, vicdansız davranışını ortaya qoyur. Birincisi, cavabdeh-borclu DSMF-in Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialıdır, Konstitusiyaya zidd yaradılan Məhkəmə Mübahisələri ilə iş üzrə Mərkəzi Filialı - 39 saylı vəkil bürosu yox! İkincisi, tələbkar qazinin iddia tələbi "məhkəmə qərarının icrasının özbaşına dayandırılmasından dəyən maddi-mənəvi ziyanın ödənilməsi" haqqındadır, borclu bu tələbi saxtalaşdırıb "ödənilməmiş pensiya məbləğinin ödənilməsi" edib. (?) Bəyəm cavabdehin özbaşınalıqla iddiaçının tələbini dəyişdirmək, cibinə uyğunlaşdırmaq hüququ var? Vətəndaş əlil-qazi Konstitusiyanın 129-cu maddəsi ilə təminat verilən dövlətin adından çıxarılan məhkəmə qərarının məcburi icrasını tələb edir, 60, 68-ci maddə ilə təminat verilən məhkəmə müdafiəsi, özbaşınalığı istisna edən vicdanlı davranış hüququnu istəyir, məhkəmədə də özbaşınalıqla, dələduzluqla üzləşir.

ƏƏSMN-in, tabeliyindəki DSMF-in, Sosial Xidmətlər Agentliyinin hüquq doktorlarının hüquqa, məhkəməyə, dövlətə, Konstitusiyaya hörmətsizliyinə Konstitusiya və suverenlik ilində son qoyulacaqmı? Yoxsa "suveren məmurların öz cib konstitusiyaları" qüvvəsini saxlayacaq? Yaşaya bilsək, görərik...

**Məğrur BƏDƏLSOY**

**Bakı şəhəri, Buzovna qəsəbəsi, Qədimgah küçəsi, ev 38 ünvanından yaşayan Dadaşova Qızqayıt Mahmudağa qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə Daxili İşlər naziri Vilayət Eyvazova və Baş prokuror Kamran Əliyevə müraciət edir:**




# Buzovna sakini dələduzluqla üzləşdiyini iddia edir

## DİN rəhbərinə və Baş prokurora müraciət edən Qızqayıt Dadaşova külli mqidarda vəsaitinin mənimsənildiyini bildirir



**"Hörmətli Vilayət Eyvazov!**
**Hörmətli Kamran Əliyev!**

Mən, Dadaşova Qızqayıt Mahmudağa qızı, əvvəla bildirim ki, dələduzlar tərəfindən aldadılmışam. Bankdan pul götürmək adı ilə bizdən etibarnamə alaraq, evimi öz dəstələrindən olan bir nəfərə satıblar. Artıq 4 ilə yaxındır ki, məhkəmələrdə sürünürük. İndiyə kimi bir çox vəkilə müraciət etmişik, lakin vəkillərimizlə uğurlu nəticə əldə edə bilməmişik. Sonuncu dəfə vəkil kimi Böyükağa Abdullayevi tanıdıq. O, özünü Məhkumların Müdafiəsi İctimai Birliyinin sədri kimi təqdim etdi. Sənədlərlə tanış olduqdan sonra bildirdi ki, "sizin evinizi Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov yıxıb". Həmçinin, qeyd etdi ki, "sizə kömək edəcəm, arxanızda durmuşam, hər yerdə adamlarım var, siz sadəcə pul toplayın, bu iş pulsuz alınmayacaq. Belə başa düşürəm ki, Mübariz Əkbərov qarşı tərəflə əlbirdir, onlardan yaxşı rüşvət götürüb, məhz bu səbəbdən də məhkəmədən sizə bildiriş və sms göndərilməyib".

Daha sonra əlavə etdi ki, mən dediklərimin hamısını etsəniz, məhkəməni udacağıq. Hətta onu da dedi ki, "mətbuatla da aram yaxşıdır, Mübariz Əkbərovu mətbuatda da biabır edəcəm, elə edəcəyəm ki, insan arasına çıxa bilməsin. Şəhid ailəsinə qarşı kim bu haqsızlığı etsə, mütləq cəzalandırılmalıdır". Yəni Böyükağa müəllim şəhid ailəsi olmağımızı dilə gətirsək, daha çox uğur qazanacağımızı bildirdi. Şəhidimizin şəkillərini böyütdürüb bizə verdi ki, şəkilə ip keçirib boğazınızdan asın. Daha sonra Apellyasiya Məhkəməsinə getməyimizi və orada bizə öyrətdiyi sözləri deməyimizi istədi. Özü isə qaçıb bir kənarda durdu.

Əvvəlcədən demişdi ki, bir neçə jurnalistə də pul verib, çağırmışam, dediklərimi orada deyin. Onu da bildirdi ki, "mənə zəng vurmayın, telefonum izlənilir. Sizi sədrin qəbuluna buraxmayacaqlar, bizə də o lazımdır. Qarşı tərəf naxçıvanlı olduğu üçün onların sözünü deyəcək".

18.09.2024-cu il tarixində vəkillə yenidən zəngləşdik. Bu dəfə də bizə məhkəmənin qabağına gəlməyimizi bildirdi. Məhkəmənin aşağı tərəfində görüşdük. Bizə çəkiliş zamanı deyəcəyimiz sözləri əzbərlətdi. Sözlər bunlar idi - "rüşvətxor", "korrupsioner" və s.

Həmin vaxtı evimiz əlimizdən alındığı üçün ayıq başla heç nəyi fikirləşə bilmirdik. Mən özüm oxumamış qadınam, "evimi alıb qaytaracaq" sevinci ilə Böyükağa deyilən yalançı vəkilə inanmışam. O, video-çəkiliş zamanı məni o qədər inandırmışdı ki, evimi əlimdən alandan çox, Mübariz Əkbərovu özümüzə düşmən bilmişdik. Hər dəfə çəkilişlərdən sonra bildirirdi ki, sevinin, bu dəfə kupçanı alacağıq. Sən demə, bu adamın hədəfi başqa imiş. Biz hardan bilərdik ki, onun Mübariz Əkbərovla qəsdi-qərəzi var?! Mətbuatda "Mübariz Əkbərov şəhid ailəsini həbs etdirdi" başlığı altında yazılar dərc etdirdi. Savadsızlığımızdan istifadə etdi. O qədər avam qadın olmuşam ki, nə desə inanırdım.

Növbəti gün prokurorluğa şikayətə getməyimi istədi. Həmin gün yenə jurnalistlər orada məni əhatəyə aldı. Həmin anda bildirdi ki, "qorxma, təhqir et, arxandayam". Prokurorluqda bizi yüksək səviyyədə qəbul edib, dinlədilər. Gördüyüm münasibətdən sonra jurnalistlərə nə deyəcəyim məni düşündürürdü. Burada pis münasibət görmədim, amma vəkil mənə dedi ki, "söy, təhqir et".

Əvvəlki təhqir videolarından sonra yoldaşımı həbs etmişdilər. Binadan çıxar-çıxmaz "Kanal 13" və "Toplum TV"-nin müxbirləri bizi qarşıladı. Bu zaman gördüyüm xoş münasibətə əsasən dedim ki, "Prezidentə və Kamran Əliyevə qurban olum". Həmin vaxt müxbirlər mənə "sizə bu da azdır",- deyə ağız-göz əydilər. Böyükağa isə məni döyməkdən və söyməkdən betər etdi, ölümə, dirimə söydü. Sual verdim ki, ay müəllim, axı orda mənə kömək edəcəklərini bildirdilər, qovmadılar, təhqir etmədilər, onları necə söyüm?! Mənə "Allah bəlanızı yaxşı verib", - deyə söyləndi. "Sən bütün zəhmətimi yerə vurdun", - dedi. Bu söz-söhbətdən sonra artıq içimizdə ona qarşı şübhə yarandı.

Daha sonra o, evə Toğrul adlı bir adam gətirərək bildirdi ki, "Banditizm"də işləyib, gətirdim ki, evinizə baxış keçirsin. Evin 2 otağını da boşaltmağımızı bildirdi. İçimdəki şübhələr böyüməyə başladı və dərhal Məhkəmə Hüquq Şurasına müraciət edərək, onun tərəfindən göndərilən şikayət ərizələrinin geri qaytarılmasını xahiş etdim. Məhkəmə Hüquq Şurası çox sağ olsun, dərhal ərizələri geri qaytardı.

**Hörmətli Vilayət Eyvazov!**
**Hörmətli Kamran Əliyev!**

Qeyd edim ki, Böyükağa Abdullayev adlı müəmmalı vəkil bizdən 4 min 150 manat və 1000 min manat pul almışdır. O, bizim bədbəxtçiliyimiz üzərində Mübariz Əkbərovu hədəf seçdi. Bu səbəblə, kimlərinsə sifarişini yerinə yetirmiş oldu. Təəssüflə qeyd edirəm ki, biz də bu məsələdə ona az da olsa, kömək etmiş olduq. Xahiş edirəm ki, bu adam haqqında araşdırma aparılsın.

Sonradan əldə etdiyimiz məlumata əsasən, özünü vəkil kimi təqdim edən şəxs dələduzluq etməklə bağlı həbsdə yatmışdır. Borc-xərc tapıb Böyükağa müəllimə verdiyim cəmi 5 min 150 manat pullumu mənimsəmişdir. Buna dair əlimdə sübutlarım var. Ona göndərdiyim pulların heç birini onun adına olan karta göndərməmişəm. Mənə başqa adamların kartlarını göndərmişdir. Hazırda axtarışda olan şəxs məni və ailəmi hədələyir. Sizlərdən xahiş edirəm ki, bizim təhlükəsizliyimizi təmin edəsiniz.

**Hörmətli cənablar!**

Mən başıma gələnləri hərtərəfli olmasa da, qısaca qeyd etdim. Savadsızlığım nəticəsində etdiyim hər şey üçün sizlərdən üzr istəyirəm".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

# "Rəis və müavini oğluma həbsxanada işgəncə veriblər"



## Binəqədi sakini Röya Nəsirova şikayətinə baxılmadığını iddia edir

**Bakı şəhəri, Binəqədi rayonu, Ramazanov küçəsi, döngə 1, ev 20 A ünvanında yaşayan Nəsirova Röya Əlican qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, övladı Səttərov Ruhin Məmmədnağı oğlunun həbsxanada hüquqları tapdalanır:**

"Mən, Nəsirova Röya Əlican qızı, yazaraq bildirirəm ki, oğlum Qaradağ rayonu, Umbakı Penitensiar Komleksində saxlanılır. Oğlum orada işgəncələrə məruz qalır. Türmə rəisi Rauf Nəbiyev orada bütün dustaqları alçaldaraq, təhqir edir. Oğlum səhhətində yaranmış ciddi problemlə əlaqədar xəstəxanada yatmaq üçün müraciət etsə də, onun gözünün qabağında ərizəsini açıb oxuyur, daha sonra çırıb atırlar. Əslində isə dustağın məktubunu oxumağa ordakıların haqqı yoxdur.

Həkim isə ağrıkəsicidən başqa, heç bir müalicə edə bilmir. Tək mənim oğlumun yox, oradakı bütün düstaqların haqqı tapdalanır. Rəis dustaqların hər birini qorxudur ki, qırağa xəbər çıxarsanız, sizi "Tubzon"a göndərəcəm. Ora da heç bir dustaq getmək istəmir. Çünki orada işgəncələr daha çox və növbənövdür. Bunu hətta Penitensiar Xidmətin rəisi Mirsaleh Seyidov da bilir. Ona məlumdur ki, orada olan alver, özbaşınalıq bəlkə də heç bir kalonda yoxdur.

Oğlum Ruhinə 7-ci kolonda rəis və müavin Yaşar işgəncə vermişdilər. Uşağın halını özüm gözlərimlə görmüşəm. Halbuki, ordakılar "heç nəyinin olmadığını" deyərək, öz "paqon" yoldaşlarının tərəfini saxlayırlar. Bir sözlə, "paqon" "paqon"u ələ vermir.

Dəfələrlə Mirsaleh Seyidovun qəbuluna yazılsam da, heç vaxt məni qəbul etməyib. Onun yerinə məni 11-ci kolonun rəhbər şəxslərindən olan Vəli müəllim qəbul etdi. Şikayətim əsnasında Penitensiar Xidmətin Barak müəllim adlı əməkdaşı uşağın yanına göndərildi. O da öz gözləri ilə uşağın xəsarətlərini görsə də, oğluma boş kağıza imza çəkdirib. Qalanına da yazıblar ki, "dustaqda heç bir döyülmə xəsarəti yoxdur". Halbuki, bizi tamamilə oyuna saldılar. Uşağın zədələrini özüm görmüşəm. Bütün dustaqlara deyilir ki, ağzını açıb kiməsə nəsə desəniz başınıza oyun açılacaq.

Oğlumun vəziyyəti ağırdır, xəstəlikləri artıb. 2 aydan çoxdur ki, daxili qanaxmadan əziyyət çəkir. 5 manatlıq dərmanı həbsxananın həkimi 20 manata satır. Pul verməsən, ölməlisən. İynə vurmaq lazımdı, o da onu kimi. Yəni orada olan bahaçılıq heç yerdə yoxdur.

Oğlumun səslərini yazmışam, maraqlanan, kömək etmək istəyən bütün qurumlara təqdim edə bilərəm. O, hazırda xəstəxanada yatmalıdır, amma qərəzli şəkildə qoymurlar. Dustaqların haqları, hüquqları tapdalanır. Hara şikayət edirəmsə, ört-basdır edirlər. Alverin, rüşvətin ən pik nöqtəsi oradadır. Şampun, dərman - hər bir şey baha qiymətə satılır. Artıq bir valideyn kimi bezmişəm, nə maddi, nə də mənəvi gücüm qalmayıb. Qaradağ Rayonu Umbakı Pentensiar Xidmətində 7-ci kalonda oğlumu ölümcül döysələr də, Barak müəllimin əli ilə təmizə çıxdılar.

Onuda qeyd edim ki, uşağın elə döyüldüyünü görəndən sonra türmənin rəisi Mehman müəllimin qəbuluna girərək, şikayətimi bildirmişəm. Oda mənə dediki heç yerə şikayət etmə oğlunu bu yaxınlarda karsdan çıxartdırıb zona göndərəcəm.

Ölən dustaqların biridə mənim oğlumun olmağını istəmirəm. Xahiş edirəm mənə kömək edin.

Həbsxananın rəisi istəmir ki, oradakı bu çirkinlər ortaya çıxsın.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Məsələ ilə bağlı aidiyyatı qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Məktəblərdə şagirdlərə narkotik təklif edilir?



## Valideynlərin iddiasına DİN-dən rəsmi cavab

**Bakıda fəaliyyət göstərən məktəblərdə uşaqlara konfet görüntülü narkotik dərmanların paylanılması ilə bağlı iddialar yayılıb.**

Hurriyyet.az xəbər verir ki, bununla əlaqədar valideyn qruplarında çoxsaylı məlumatlar paylaşılır.

Iddialara əsasən, azyaşlılar ayı balası formasında olan rəngli konfetlər vasitəsilə aldadılır.

Məlumatlarla əlaqədar Daxili İşlər Nazirliyinə (DİN) sorğu ünvanladıq. Qurumun Mətbuat Xidmətinin əməkdaşı Elbrus İbrahimov məsələ ilə bağlı bildirdi ki, sosial şəbəkələrdə ölkə ərazisində məktəblərdə şagirdlərə narkotik vasitə təklif edilməsi ilə bağlı paylaşılan məlumatlar həqiqəti əks etdirmir:

"Polis əməkdaşları tərəfindən bu paylaşım tam və hərtərəfli araşdırılıb, müəyyən olunub ki, həmin paylaşım xarici ölkələrdən birinə aid internet resurslarında yayılıb".

**Emil MAQALOV**
*Regional Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri*



# Boşanma və xəyanət

Statstikaya görə, əvvəlki illərlə müqayisədə boşanmaların sayı artır. Eyni zamanda, cəmiyyətin boşanmalara qarşı münasibəti də dəyişilib. Hətta artıq adi hal olaraq qəbul edilir.

Sizcə, boşanmalara qarşı yanaşma adiləşdikcə say etibarı ilə boşanmış ailələr çoxalmırlar?

Əlbəttə çoxalır. Bəs görəsən səbəb nədir: ideologiya, sosial, maddi durum, cinsi problemlər, yoxsa psixoloji təsirlər?

Ailənin sosial "yaşam tərzi" dedikdə cəmiyyətdə tutduğu mövqe, özünü cəmiyyətə təqdimi, ailəiçi, kənar insanlar, qohum-tanışların təsiri, insanın sərbəst yaşama prinsipləri və s. nəzərdə tutulur.

Maddi durum dedikdə isə, insanın maddi istəklərinin ödənilə bilməməsi, ətraf insanların yaşam tərzinə baxdıqca, insanın istək və tələbatı da oyanır. Ödənilməmiş tələbat isə birbaşa insan duyğularına təsir edir. Bu zaman psixoloji problemlər baş qaldırır. Gərginlik, sinir sisteminin oyanıqlığı, əhvalın kəskin dəyişməsi, mühit və reallığı qəbul etməmək insanı bir-birini başa düşməz hala gətirir. Ər-arvad bir-birlərini anlamır, komprimisə getmək istəmirlər, hər kəs özünün haqlı olduqlarını sübut etmək istəyir.

Ailədə çox vaxtda boşanmalar xəyanət üstündə də yaranır. Xəyanəti bağışlamaq olarmı? Bu sualı cavablandırmağa çalışacam.

Xəyanət bağışlanmaz olsa da, xəyanəti yaradan və insanı xəyanətə sürükləyən səbəbləri gözdən keçirək. Sevgi doyumsuzluğu, bəzi komplekslərin tamamlanmaması, həyatın müəyyən hissəsində düşdüyü boşluqlar, keçmişdə yaşadığı psixoloji travmalar, depressiya (nəzərə alsaq ki, kişilər depressiyaya düşəndə bu durumdan çıxmaq üçün zərərli vərdişlərə meyl edirlər: spirtli içki, qumar, siqaret, narkotik, xəyanət və s.) davamlı konfilikt, kənar insanların ailəyə müdaxiləsi, iradə zəifliyindən təsir alta düşmə və s.

Bunlar hamısı xəyanətə sürükləyən səbəblərdir. Bəlkə ilk növbədə bunları aşkara çıxarmaq və bu psixoloji durumu ortadan qaldırmaq lazımdır?! Xəyanət baş veribsə, diqqət xəyanətə yox, problemi həll etməyə yönəlməlidir.

Əksər xanımlar düşünür ki, boşanandan sonra artıq problemim azalacaq. Çünkü onu əsəbləşdirən hal ona xəyanət edən kişi ilə bir yerdə qalır. Deyirlər ki,onu görməsəm daha rahat olaram. Nəzərə alaq ki, bu duyğular həmin vaxt üçün keçərlidir. Sonrakı vaxtlar qəzəb, nifrət hissi azaldıqca peşmançılıqlar önə çıxır. O anda da qadın ya acığa düşüb intiqam, qisas zəminində hərəkət edir, istəmədikləri evliliyə, yeni bir münasibətə baş vurmuş olur. Sonra da özlərinə ikinci bir travmanı yaşadırlar, ya da tərk edilmiş, aldadılmış düşüncələrlə yaşayaraq psixoloji durumlarını pozurlar.

Boşanmalar uşaqların psixoloji durumuna necə təsir edir?

Nəzərə alsaq ki, ailə tək ər-arvad münasibəti demək deyil, həm də ailədə övlad varsa, ata və ana obrazı kimi uşaqlarına valideynlik məhsuliyyətdir. Uşaq valideynlərinin arasında baş verən konflikti normal qəbul etmir.

Ailədə boşanmalar uşaqlarda bir sıra psixoloji pozuntulara iz açır. Onları həm daxili, həm də xarici aqressivliyə yönəldir.

Daxili aqressivlik dedikdə valideynin boşanmasını təbii ki, uşaq normal qəbul etmir. Hətta deyərdim ki, utanc yaşayır. Baş vermiş hadisəni daxilində həddindən artıq şişirdir və daxili stress keçirir. Davranışında xoşagəlməz pozuntular olur. Gecə yuxularında diksinib oyanmalar, sayıqlamalar, enurez (gecə yerini islatma), utancaqlıq, özünə qapanma, özgüvənsizlik, ünsiyyət halları müşahidə olunur. Eləcə də arici aqressivlik, dostlar, sinif yoldaşlar və ətrafdakı insanlarla aqressiv münasibət, ünsiyyətində kobudluq, qisas almaq iddiası, vurmaq, dağıtmaq və s.

Buna görə, boşanmadan öncə ailədə uşaqların psixoloji durumu da nəzərə alınmalı, mütəxəssislərlə məsləhətləşilməlidir.

# “İnsanın kim olduğu deyil, kim olmağa qərar verdiyi önəmlidir”

## Sərkərdə Sərxanoğlu: “Hər kəs taleyin yazdıqlarına boyun əymir, bəziləri taleyini öz əlləri ilə yazır"

Bəzən həyat bizə elə insanlarla qarşılaşmaq fürsəti verir ki, onların hekayələri və baxışları yalnız özləri üçün deyil, ətrafındakı hər kəs üçün də ilham mənbəyinə çevrilir. Belə insanlardan biri də Sərkərdə Sərxanoğludur. Bu müsahibədə biz onun həyat yoluna, seçimlərinə və liderlik fəlsəfəsinə daha yaxından nəzər salırıq. Sərkərdə bəyin cavabları təkcə onun şəxsi təcrübələrini deyil, həm də bu günün və gələcəyin liderləri üçün mühüm dərsləri özündə əks etdirir.



***- Sərkərdə bəy, əfsanələr adətən doğulmur, yaradılır. Sizcə, insan taleyini özü yaradır, yoxsa tale öz qəhrəmanını özü seçir?***

- Çox maraqlı və düşündürücü sualdır. Mənə görə tale sadəcə başlanğıc nöqtəsidir, amma insanın gerçək kimliyi onun öz seçimlərində formalaşır. Bəli, əfsanələr doğulmaz, yaradılar. Amma bu yaradılış bir insanın öz içində baş verən savaşdan, mübarizədən və seçimlərindən doğur. Taleyin qəhrəmanı seçdiyini düşünənlər çoxdur, amma mən fərqli baxıram, tale yalnız bir fürsət qapısı açır, içəri girib-girməmək insanın öz əlindədir. Zəiflər taleyin gətirdiyi çətinliklərin əsiri olur, güclülər isə talelərini öz əllərində yoğurub, yenidən yazırlar. Bir insanın kim olduğu deyil, kim olmağa qərar verdiyi önəmlidir. O qərar isə yalnız öz əlimizdədir.

***- Həyatınızda sizi ən çox formalaşdıran və dəyişdirən çətin an hansıdır? O təcrübə sizə nə öyrətdi?***

- Ən çətin anımg Deyərdim ki, həyatımda bir yox, bir çox çətin anlar olub. Amma biri xüsusilə yadımdadır. Elə bir an var idi ki, hər şey əlimdən çıxmış kimi görünürdü. İnandığım insanlar uzaqlaşmışdı, yolum qaranlıq idi və sanki hər tərəfdən çətinliklər üstümə yığılmışdı. Öz-özümə sual verdim: ”Burada dayanacağam, yoxsa davam edəcəyəm”? O an məni dəyişdi. Başa düşdüm ki, heç kim mənim yükümü daşımağa gəlməyəcək, heç kim mənim üçün savaşa bilməz, öz yolumu yalnız özüm açmalıyam. O gündən sonra mən çətinliklərə başqa cür baxıram - onları maneə kimi yox, bir sınaq, bir gücləndirici mərhələ kimi qəbul edirəm. Həyatın ən böyük dərsi budur: ən qaranlıq an, əslində, sənin ən parlaq işığını tapdığın andır. Bu gün buradayamsa, o gün sınmadığım üçün buradayam.

***- Özünüzə baxanda bir qəhrəmanı, bir yolçunu, yoxsa sadəcə bir insanı görürsünüz?***

- Özümə baxanda nə qəhrəman, nə də sadəcə bir insan görürəm. Mən, hər şeydən əvvəl, bir yolçu olduğumu hiss edirəm. Çünki həyatın özü bir yoldur və bu yolun sonu yoxdur. Qəhrəmanlar dastanlarda yaşayır, insanlar bir gün tarixə qarışır, amma yolçular daim yoldadır. Yolçuluq mənim üçün təkcə fiziki bir hərəkət deyil, eyni zamanda ruhun, düşüncənin, xarakterin inkişafıdır. Mən hər addımda öyrənirəm, dəyişirəm, böyüyürəm. Bu yol bəzən çətin olur, amma heç vaxt geri dönməyi düşünməmişəm. Mən bir idealın, bir məqsədin yolçusuyam. Mənə görə, insanın həyatda əsas missiyası özündən daha böyük bir şey uğrunda yaşamaqdır. Bu gün mən özümə baxanda, yalnız bir insan görsəydim, deməli, məqsədim hələ tam aydın deyil. Amma mən o yolun üzərində, o məqsədin içindəyəm və bu, mənim üçün ən böyük dəyərdir. Bəzən insanlar soruşur: ”Sən öz yolunu tapmısan”? Mən isə cavab verirəm ki, yol tapılmır, yol yaradılır. Mənim yolum da hələ tamamlanmayıb, amma onu özüm inşa edirəm.

***- Sizcə, güclü lider olmaq üçün ən vacib üç xüsusiyyət nədir?***

- Güclü lider olmaq üçün bir çox xüsusiyyətlər tələb olunur, amma mənim üçün ən vacib üçü bunlardır: Birincisi; iradə və qətiyyətdir. Liderlik yolu asan deyil, çətinliklər, maneələr və təzyiqlər qaçılmazdır. Güclü lider nə qədər çətin olursa-olsun, öz yolundan dönməyən insandır. O, qarşısına çıxan problemlərdən qorxmaz, çünki bilir ki, liderlik təhlükəsiz zonada qalmaq deyil, risk etmək və nəticə üçün məsuliyyət daşımaqdır. Tarixə baxsaq, görərik ki, həqiqi liderlər həmişə öz inancları uğrunda savaşan, heç vaxt geriyə çəkilməyən insanlardır.

İkincisi, vizyon və strateji düşüncədir. Lider təkcə bu günü deyil, sabahı da görməyi bacarmalıdır. Əsl lider, bir problemi həll etməkdən daha çox, gələcəkdə o problemin yaranmasının qarşısını alan insandır. Güclü liderlər hər zaman bir neçə addım irəlidə düşünür. Onlar taktiki yox, strateji oyunçulardır. Yəni, sadəcə kiçik qələbələr üçün çalışmırlar, uzunmüddətli nəticələri nəzərə alaraq qərarlar verirlər. Ona görə də lider sadəcə idarə edən deyil, yol göstərən və istiqamət verən insandır. O, insanlara sadəcə tapşırıqlar vermir, onların niyə və nə üçün çalışdıqlarını anlamağa kömək edir.

Üçüncüsü isə, insanları tanımaq və ruhlandırmaq bacarığıdır. Güclü liderin ən böyük silahı insanları anlamaq və ruhlandıra bilməkdir. Liderlik təkbaşına zirvəyə qalxmaq deyil, komandanı da zirvəyə daşımaqdır. Lider insanları hiss etməli, onların güclü və zəif tərəflərini tanımalı, onları doğru istiqamətə yönləndirməlidir. Əsl lider, insanları qorxu ilə deyil, inamla idarə edir. Bir komandaya rəhbərlik edəndə, ən çətin vəziyyətlərdə belə onlara güvən vermək və ruhlandırmaq liderin əsas vəzifəsidir. Çünki insanlar liderə inananda, onlar özlərinə də inanmağa başlayırlar.

Nəticə etibarilə, güclü lider olmaq üçün iradə, vizyon və insanları ruhlandırmaq bacarığı mütləqdir. Əgər lider bu üç xüsusiyyəti özündə formalaşdıra bilsə, o zaman təkcə bir təşkilatı və ya bir qrupu deyil, bütöv bir dövrü dəyişdirmək gücünə sahib olar.

***- Sizi uğursuzluqlar qorxudurmu? Yoxsa uğursuzluqları bir pillə kimi görürsünüz?***

- Uğursuzluqg Bu söz çoxlarına qorxulu gəlir, amma mənim üçün uğursuzluq bir məğlubiyyət deyil, bir dərsdir. Əgər insan uğursuzluqdan qorxursa, deməli, o, heç vaxt risk etməyəcək, heç vaxt böyüməyəcək və heç vaxt zirvəyə çata bilməyəcək. Böyük uğurların arxasında yüzlərlə kiçik məğlubiyyət dayanır. Mən həyatda ən böyük dərslərimi uğursuzluqlarımdan almışam. Hər dəfə bir şey alınmayanda, özümə sual vermişəm: “Bu niyə baş verdi?”, “Nəyi səhv etdim?”, “Bu səhvdən nə öyrənə bilərəm?” Uğursuzluq yalnız onu qəbul edənlər üçün son olur. Amma onu analiz edib, dərs çıxaranlar üçün uğursuzluq bir növbəti addıma keçmək üçün imkan yaradır, ya qazanırsan, ya da öyrənirsən, başqa variant yoxdur. Uğursuzluqdan qorxanlar hər zaman eyni yerdə qalır. Amma onu dərs kimi görənlər daha da güclənir və qalib gəlir. Mənim üçün hər uğursuzluq, daha böyük bir uğurun başlanğıcıdır.

***- Sizcə, bir insanın həyatda ən böyük hədəfi nə olmalıdır?***

- Həyatda hər insanın fərqli hədəfləri ola bilər - uğur, sərvət, status, bilik, nüfuz və s. Amma mənim fikrimcə, bir insanın həyatda ən böyük hədəfi özündən sonra iz qoymaqdır. Həyat sadəcə gəlib-getməkdən ibarət deyil. Hər kəs dünyaya gəlir, yaşayır və bir gün bu dünyadan gedir. Amma kimlərsə yox olur, kimlərsə qalır. Böyük insanlar bu dünyadan getsələr də, fikirləri, gördükləri işlər, təsirləri yaşayır. Ona görə də insanın ən böyük hədəfi yaşadığı müddətdə dünyada bir fərq yaratmaq olmalıdır. Bu fərq hər kəs üçün fərqli ola bilər: Bir alim üçün yeni bir ixtira qoymaq, bir müəllim üçün yeni nəsillərə bilik vermək, bir lider üçün insanlara yol göstərmək, bir ata üçün övladlarına düzgün tərbiyə vermək və s. Ən əsası isə, insan öz hədəfinin yalnız öz xoşbəxtliyi ilə məhdudlaşmasına imkan verməməlidir. Çünki ən böyük hədəflər başqalarına da fayda gətirən hədəflərdir. Mənim həyat fəlsəfəm budur: Yaşamaq kifayət deyil, yaşatmaq lazımdır. Zənginlik toplamaq kifayət deyil, dəyərlər yaratmaq lazımdır. Uğur qazanmaq kifayət deyil, başqalarına uğur qazandırmaq lazımdır. İnsan bu dünyadan köçəndə, arxasında iz qoyursa, demək ki, hədəfinə çatıb. Mənim hədəfim də budur - bu dünyada bir iz buraxmaq.

***- Bu gün dünyanı dəyişə bilsəydiniz, ilk dəyişiklik nə olardı?***

- Əgər bu gün dünyanı dəyişmək şansım olsaydı, ilk olaraq insanların düşüncə tərzini dəyişərdim. Çünki dünyada bütün problemlərin kökündə insanların düşüncə və baxış bucağı dayanır. Bəzən insanlar dəyişiklik istəyirlər, amma özləri dəyişməyə hazır deyillər. Onlar daha yaxşı həyat, daha ədalətli sistem, daha gözəl dünya istəyirlər, amma özlərində bir addım atmağa cəsarət tapmırlar. Mən inanıram ki, əgər insanlar fərqli düşünməyi öyrənsələr, onda həyatları da dəyişəcək, cəmiyyətlər də inkişaf edəcək. Dəyişmək istədiyim üç əsas şeyə gəlincə, qorxu mədəniyyətini yox etmək istərdim. İnsanlar çox vaxt özlərini dəyərsiz hiss edirlər, çünki onlara belə öyrədilib. Qorxularla idarə olunan bir cəmiyyət heç vaxt irəliləyə bilməz. Mən insanlara inam vermək, onları öz potensiallarına inandırmaq istəyərdim. Məsuliyyət anlayışını gücləndirərdim. Hər kəs hökuməti, cəmiyyəti, tarix günahlandırır. Amma az adam düşünür ki, hər birimiz bu dünyanın bir hissəsiyik və öz payımıza düşən məsuliyyəti daşımalıyıq. Əgər insanlar öz həyatlarına sahib çıxsalar, dünya da dəyişər.

Təhsil və düşüncə azadlığını artırardım. İnsanların dəyişməsi üçün onlar düşünməyi öyrənməlidirlər. Öz fikirlərini formalaşdıra bilməyən insanlar həmişə başqalarının fikirləri ilə idarə olunacaqlar. Bir sözlə, dünyanı dəyişmək üçün ilk addım insanların düşüncəsini dəyişməkdir. Çünki fikirlər dəyişəndə, qərarlar dəyişir. Qərarlar dəyişəndə, hərəkətlər dəyişir. Hərəkətlər dəyişəndə, dünya dəyişir. Mən də bu dəyişiklik üçün üzərimə düşən nə varsa, etməyə hazıram.

***- Gələcək nəsillərə hansı mesajı vermək istəyərdiniz?***

- Gələcək nəsillərə təkcə bir mesaj yox, bir çağırış etmək istəyərdim. Mən istəyirəm ki, onlar cəsarətli, inamlı və öz taleyinin sahibi olan insanlar olsunlar. Bu dünyada heç kim sənin uğurun üçün sənin qədər narahat olmayacaq. Ona görə də, başqalarından kömək gözləmədən öz yolunu özün yaratmalısan. Mənim mesajım budur: “Heç vaxt başqasının yazdığı ssenarinin personajı olma, öz hekayənin müəllifi ol”. Səni dayandıran şey, əslində, beynində yaratdığın məhdudiyyətlərdir. Sənə “mümkünsüzdür” deyənlərə qulaq asma. Tarixdəki bütün böyük insanlar, bir vaxtlar başqaları tərəfindən “bu mümkün deyil” deyə etiketlənmişdi. Amma onlar sübut etdilər ki, imkansız olan şey sadəcə cəsarət tapılmayan şeydir. Uğuru sərvət və statusla ölçmə. Həyatda ən qiymətli şey sən gedəndən sonra sənin haqqında deyilənlərdir. Pul qazanmaq olar, titullar almaq olar, amma əsl dəyər insanlara necə təsir etdiyindir. Xəyal qurmaqdan qorxma və heç vaxt kiçik düşünmə. Böyük olmaq üçün böyük düşünmək lazımdır. Kiçik hədəflər qoyanlar heç vaxt böyük nəticələr əldə edə bilməz. Hədəflərin səni qorxudursa, deməli, doğru yoldasan. Çətinliklərdən şikayət etmə, onlardan güc al. Həyat səni sınağa çəkəcək, amma sınmaq üçün yox, daha güclü olmağın üçün. Unutma ki, ən parlaq qılınclar ən çox döyülənlərdir. Mən istəyirəm ki, gələcək nəsillər başa düşsünlər ki, həyatın açarı onların öz əllərindədir. Əgər bir gün məndən sonra bu sözlər birinin həyatını dəyişərsə, o zaman mənim izim yerində qalacaq.

***- Ömrünüzün son günündə hansı nailiyyətiniz sizi ən çox qürurlandıracaq?***

- Ömrümün son günü gəldikdə, arxaya baxıb yalnız qazandıqlarımı deyil, dəyişdirdiklərimi görmək istəyirəm. Mənim üçün əsl nailiyyət öz həyatımı dolu-dolu yaşamaq və başqalarına da yol açmaqdır. Mənim üçün ən qürurverici şey bu olacaq, dünyaya gəldiyim kimi getmədim, iz buraxdım. Əgər bir gün mən gedəndə insanlar desələr ki, “o, həyatda sadəcə yaşamadı, o, fərq yaratdı”, “onun sözləri, ideyaları və mübarizəsi mənə ilham verdi”, “o olmasaydı, bəlkə də bu addımı atmazdım”, bax, o zaman mən bilərəm ki, boş yerə yaşamamışam. Nailiyyətlər, uğurlar, qazanc - bunların hamısı bir gün yox olacaq. Amma insanlara ötürdüyün dəyərlər əbədi qalacaq. Ömrümün son günü gələndə, “Kaş ki” sözünü yox, “Şükür ki” sözünü işlətmək istəyirəm. Şükür ki, bacardımg Şükür ki, dəyişə bildimg Şükür ki, ardımda dəyərli bir miras qoydum. Və o gün gəldikdə, ruhum rahat olacaq.

**Laçın SƏMLA**



# ABŞ prezidentinin Azərbaycan üçün təhlükəli qərarı...



## Qubad İbadoğlu: "Trampın enerji və tarif siyasətləri Azərbaycanda iqtisadi sabitliyin pozulmasına gətirib çıxara bilər"

**Tanınmış iqtisadçı Qubad İbadoğlu hesab edir ki, ABŞ-ın yeni prezidenti Donald Trampın enerji və tarif siyasətləri Azərbaycanda iqtisadi sabitliyin pozulmasına gətirib çıxara bilər. O, təklif edir ki, maliyyə, valyuta və fiskal sabitliyi qorumaq üçün təcili islahatlar həyata keçirilməlidir.**

"ABŞ prezidenti Donald Trampın təklif etdiyi enerji və ticarət siyasətləri qlobal neft və qaz qiymətlərində uzunmüddətli enişə səbəb ola bilər. Bu isə fundamental struktur islahatları həyata keçirilməyəcəyi halda 2026-cı ildən etibarən Azərbaycanda iqtisadi sabitliyin pozulmasına gətirib çıxara bilər", - deyən iqtidsadçının fikrincə, Azərbaycanın hidrokarbon gəlirlərindən asılılığı onu qlobal enerji bazarlarındakı dəyişikliklərə və ticarət axınlarına qarşı həssas edir. Trampın Milli Enerji Fövqəladə Hallar Aktının (National Energy Emergency Act) ABŞ-ın enerji müstəqilliyini artırmağa yönəlməsi, dünya bazarında neft və qaz qiymətlərinin düşməsini sürətləndirə, Azərbaycanın gəlirlərini azalda və büdcə kəsirini genişləndirə bilər.

### ABŞ-ın LNG ixracı Azərbaycanın qaz strategiyasına təhdid yaradır

ABŞ 2016-cı ildən etibarən LNG (mayeləşdirilmiş təbii qaz) ixracına başlayıb və bu gün qlobal qaz bazarında əsas oyunçulardan birinə çevrilib. Bu, Avropanın boru kəmərləri vasitəsilə qaz təchizatına olan etibarını azaldır, Azərbaycanın 14,5 milyard dollarlıq Cənub Qaz Dəhlizi (SGC) layihəsi üçün ciddi problemlər yaradır. Layihəyə Trans-Adriatik Boru Kəməri (TAP), Trans-Anadolu Boru Kəməri (TANAP) və Cənubi Qafqaz Boru Kəməri daxildir.

"Əgər ABŞ Avropaya LNG ixracını artırsa, Azərbaycanın boru kəməri ilə qaz nəqlinin rəqabət qabiliyyəti zəifləyəcək və Cənub Qaz Dəhlizinin gəlir gətirmə səviyyəsinə çatması 2030-cu ildən sonraya qalacaq", - İbadoğlu bildirib.

### "BP və SOCAR gəlirlərin azalması ilə üzləşir"

Azərbaycanın əsas enerji tərəfdaşları, o cümlədən BP, artıq ciddi maliyyə çətinlikləri ilə qarşılaşır. BP-nin bazar dəyəri 2018-ci ildəki 152,6 milyard dollardan 2025-ci ilin əvvəlində 82 milyard dollara qədər azalıb, şirkət isə işçi qüvvəsinin 5%-ni ixtisar edib. Digər tərəfdən, Chevron və ExxonMobil kimi böyük ABŞ neft şirkətləri 2024-cü ilin sonunda mənfəətin azalmasını elan ediblər.

SOCAR-ın gələcək perspektivləri qeyri-müəyyən olaraq qalır. 2024-cü ildə SOCAR-ın neft hasilatı 7,5 milyon tona enib, halbuki 2023-cü ildə bu rəqəm 7,8 milyon ton təşkil edib. Azeri Light neftinin orta qiyməti 2024-cü ildə 82,87 dollar olub, 2023-cü ildə isə 86,1 dollar idi. Müqayisə üçün, 2022-ci ildə bu göstərici 103,58 dollar təşkil edirdi.

ABŞ önümüzdəki iki il ərzində gündəlik neft hasilatını 1-1,5 milyon barrel artıraraq dünya bazarında qiymətləri 2025-26-cı illərdə 60 dollar civarına salmaq potensialına malikdir.

### Artan borclar və maliyyə təzyiqləri riskləri gücləndirir

İbadoğlunun analizinə əsasən, SOCAR-ın uzunmüddətli borcları 2023-cü ildə 993 milyon manat artaraq 12,1 milyard manata (7,1 milyard dollar) çatıb. Azərbaycanın Dövlət Neft Fondu (SOFAZ) isə 2024-cü ildə neft və qaz satışından əldə etdiyi gəlirlərin 3 milyard manat azalması ilə üzləşib.

Azərbaycanın xarici ticarət dövriyyəsi 2024-cü ildə 6,98% azalıb, ixrac 21,67% geriləyib, idxal isə 21,82% artıb. Bu, valyuta bazarında gərginliyi artırıb. Mərkəzi Bankın valyuta ehtiyatları 2025-ci ilin yanvarına qədər 6% azalaraq 10,99 milyard dollara düşüb, bu da manatın devalvasiya riskini yüksəldib.

### "İqtisadi böhran qarşısında struktur islahatlar zəruridir"

İbadoğlu Azərbaycan iqtisadiyyatının qarşılaşdığı əsas riskləri aşağıdakı kimi təsnif edir:

Cənub Qaz Dəhlizinin gəlir gətirmə səviyyəsinə çatması 2030-cu ildən sonraya qalacaq;

SOFAZ-ın aktivləri büdcə transferlərinin artması səbəbindən tükənə bilər;

SOCAR-ın gəlirlərinin azalması və borc öhdəliklərinin artması şirkətin maliyyə dayanıqlığını təhlükə altına qoyur;

Dövlət büdcəsinə daxil olan vergilərin azalması büdcə kəsirinin artmasına səbəb olacaq;

Manatın dəyərinin aşağı düşməsi və idxalın bahalaşması devalvasiya riskini yüksəldir;

Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri ilə neft tranzitinin azalması Azərbaycanın tranzit gəlirlərini azalda bilər.

İqtisadçı xəbərdarlıq edir ki, bu tendensiyalar sosial-iqtisadi problemləri dərinləşdirəcək, buna görə də maliyyə, valyuta və fiskal sabitliyi qorumaq üçün təcili islahatlar həyata keçirilməlidir.

**Hazırladı: RƏŞAD**

# İran Trampın təyyarəsini vurmaq istəyib...




**İran ABŞ prezidentliyi yarışı zamanı Trampı öldürməyi planlaşdırıb. Seçki kampaniyası zamanı Donald Tramp İrandan gələn sui-qəsd təhlükəsi ilə üzləşib, bunun miqyası əvvəllər güman ediləndən qat-qat ciddi olub.**

Lent.az-ın xarici mediaya istrinadən məlumatına görə, ABŞ kəşfiyyat agentlikləri hazırkı prezidenti öldürmək planını üzə çıxarıblar. Bu plana görə onun təyyarəsini yer-hava raketləri ilə vurmağa cəhd edilməli və onun korteji hərəkət edərkən atəşə tutulmalı idi.

Floridada Trampın qolf klubuna edilən hücumdan sonra vəziyyət gərginləşib, bundan sonra prezidentliyə namizədin komandası onun səyahət qaydalarını dəyişmək üçün addımlar atıb. Siyasətçinin özü başqa şəxsi təyyarə ilə uçmağa başlayıb, onun məşhur "Trump Force One" isə personalı daşımaq üçün istifadə edilib.

Başqa bir narahatlıq doğuran mərhələ Trampın sentyabr ayında Pensilvaniyaya səfəri zamanı, onun təhlükəsizlik işçisi şübhəli pilotsuz təyyarəni elektromaqnit tüfənglə vurduğu zaman baş verib. Bu hadisə İran agentlərinin ABŞ ərazisində yaratdığı təhlükənin ciddiliyinin növbəti təsdiqi olub.

Məlumata görə, Tramp, xüsusən də 2020-ci ildə general Qasım Süleymaninin öldürülməsinə görə İranın mümkün qisas alması qarşısında həyatı üçün ciddi şəkildə qorxub. İddialara görə, o, əvvəllər xarici siyasətində əsas məqam kimi zərbə ilə fəxr etməsinə baxmayaraq, seçkiqabağı çıxışları zamanı epizodu daha az xatırladıb.

# Mask "Azadlıq" və "Amerikanın səsi"ni bağlamağı təklif etdi

Amerikalı milyarder İlon Mask ABŞ-nin "Azadlıq Radiosu" və "Amerikanın səsi" radiostansiyalarını bağlamalı olduğunu deyib.

Bu haqda "X" hesabında yazan Mask bu radiostansiyalara heç kim qulaq asmadığını və onların fəaliyyətinə ildə təxminən 1 milyard dollar xərcləndiyini deyib. "Bəli, onları bağlayın. Boğucu bürokratiya xaric olmaqla Avropa indi azaddır. Artıq heç kim onlara qulaq asmır", - deyə o bildirib.

Onun fikrincə, bu radiostansiyaları öz-özünə danışan, dəli radikal solçular idarə edir. Eyni zamanda, hər iki radiostansiyaya ABŞ vergi ödəyiciləri tərəfindən toplanan təxminən 1 milyard dollar xərclənir. Qeyd edək ki, "Azadlıq radiosu" və "Amerikanın səsi" bir sıra digər media orqanları kimi ABŞ hökuməti tərəfindən maliyyələşdirilir və ABŞ Qlobal Media Agentliyi tərəfindən idarə olunur.

# Rusiya daha bu silahdan istifadə edə bilməyəcək...



**Baltikyanı ölkələrin Rusiya enerji şəbəkəsindən ayrılması Avropa üçün mühüm hadisədir. Bunu Ukrayna Prezidenti Volodimir Zelenski deyib.**

"Ukraynanın dostları olan Baltikyanı ölkələr Rusiyanın enerji şəbəkəsindən ayrılıb. Onların enerji sistemləri artıq Avropa kontinental sistemi ilə tam sinxronlaşdırılır. Ukrayna 2022-ci ildə bunu etdi və indi Baltikyanı ölkələr də asılılıqdan qurtuldu.

Moskva enerjidən Baltikyanı ölkələrə qarşı silah kimi istifadə edə bilməyəcək. Həm də bu o deməkdir ki, Avropa daha da bütövləşib", - Zelenski bildirib.



# Şəhid Mahir Paşayevin həyat və döyüş yolu

**Cəlilabad rayonu, Əsədli kəndində boya-başa çatan Mahir Bəxtiyar oğlu Paşayev İkinci Qarabağ müharibəsində Vətən, torpaq uğrunda şəhidlik zirvəsinə ucalaraq milyonların ürəyində özünə əbədi məkan qurub. Fəqət, Mahir həm də 30 il düşmən tapdağında qalan cənnət məkan Qarabağımızın mərd xilaskar ərənləri kimi tarixin yaddaşında silinməz iz qoyub. Elə bütün bunlara görə onun yaşadığı 23 illik ömür yolu doğma Azərbaycanına, millətinə başdan-başa ilahi bir sevgidir. Mahir torpaq, Vətən yolunda ölməklə bizim üçün ən müqəddəs bir varlığa dönərək əlçatmaz göylərə ucaldı.**

O, kənd məktəbini bitirəndə birinci amalı Vətən torpağını qorumaq və mübarizliklə düşmənə qalib gəlib Qarabağı azad etmək olub. 2015-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edib. Müqəddəs əsgəri borcunu şərəflə yerinə yetirib, vətənpərvər oğul olaraq əsgərlər arasında sayılıb tanınıb. İştirak etdiyi təlimlərdə də bütün sınaqlardan uğur qazanıb. Qəlbində erməni quldurlardan intiqam, qisas almaq alovu get-gedə güclənən Mahir hərbi sirlərinə mükəmməl yiyələnib. Və ən əsası cəbhə xətində yağı düşmənlə qarşı-qarşı dayanmış igid əsgər hər an Vətən torpaqların azadlığı naminə döyüşə atılmağa məqam gözləyib.

2016-cı ilin Aprel döyüşlərində Mahir Paşayev birincilər sırasında silaha sarılıb erməni dığalarına qarşı ölüm-dirim mübarizəsinə girib. İlk gündən çoxlu canlı qüvvəsinin, texnikasının axırına çıxmaqla onları lərzəyə salıb. Lələ təpədə üçrəngli qələbə bayrağımız ucalananda bir daha doğma Azərbaycanın hər qarışına ürəkdən bağlanıb. Mərdliyi, qəhrəmanlığı əsgər yoldaşlarına nümunə olan Mahir Paşayevə kiçik çavuş rütbəsi verilib.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Mahir Paşayev Vətən müharibəsində isə əsl qəhrəmanlıq salnaməsini yaradıb. Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən haqq savaşımızda can qoyub, müharibə meydanında yağıya qan uddurub. Döyüşdən-döyüşə Vətənə olan sonsuz məhəbbətini dığaların kabusuna çevrilməklə göstərib. Ağır müharibə meydanında yaxşı vuruşmaqla bərabər, həm də çiyin-çiyinə döyüşən əsgərlərə mənəvi dayaq durub, şəxsi şücaəti hesabına onlarda böyük qələbəyə inam yaradıb. Mahir Paşayev oktyabrın 9-da Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən düşmənlə son damla qanına qədər vuruşub şəhidlik zirvəsinə ucalıb.

Vətənin yaşaması naminə canını fəda edən, şəhidliyi bütün millətə başucalığı olan Mahir Paşayev ölümündən sonra dövlət tərəfindən bir sıra medallara layiq görülüb. Rəşadətli döyüş yolunda göstərdiyi şücaətə verilən təltiflər arasında "Vətən uğrunda", "İgidliyə görə", Cəbrayılın, Kəlbəcərin, Xocavəndin və Qubadlının azadlığı medalları da vardır.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Şəhidlər ölməz, Vətən bölünməz!

## Ölümsüzlüyə qovuşan Milli Qəhrəmanın 55 yaşı tamam oldu





**Birinci Qarabağ müharibəsində adını Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazan Vətənin igid, cəsur oğlanlardan biri də Mirəsgər Seyidovdur. Bu Vətən sevdalısı 1970-ci ildə Babək rayonu, Qaraxanbəyli kəndində anadan olub. Erməni dığaların Naxçıvanın kəndlərinə aramsız hücumları zamanı yurdun çətin günlərdə Mirəsgər könüllü olaraq döyüşlərə qatılıb və odlu səngərlərdə düşmənin başına od ələyib... Bu günlərdə ölümsüzlüyə qovuşan Milli Qəhrəmanın 55 yaşı tamam olub. Bununla əlaqədar Masallı rayon Mərkəzi Kitabxanasında tədbir keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə müqəddəs Vətən torpaqlarının müdafiəsi və azadlığı uğrunda həlak olan qəhrəman şəhidlərinin əziz xatirəsini bir dəqiqəlik sükutla anıblar.

Kitabxananın əməkdaşı Şəmsurə Nəsirova ilk çıxış edərək deyib: - Qeyrətli oğullarımız Vətən uğrunda son damla qanlarına qədər mübarizə aparıb, haqq yolundan dönməyib, canı bahasına yurdumuzu müqəddəs məkana çeviriblər. Bununla düşmənə sübut ediblər ki, Vətən torpağının bir qarışı belə onlara verilə bilməz. Naxçıvan torpağında boya- başa çatan Mirəsgər Seyidov da Vətənin yaşaması naminə canından keçib. Ölümün gözünə dik baxıb odlu səngərdə düşmənə qarşı döyüşən şəhidlər bizim and yerimiz, qürur mənbəyimizdir. Şəhidlər ölməz, Vətən bölünməz.

Kitabxananın digər əməkdaşı Aidə Quliyeva məruzəsində şəhid qəhrəmanımız haqqında daha geniş danışıb: " Naxçıvanın sərhəd kəndlərinə hücum edən düşmənlə mübarizə aparmaq üçün bu yurdun qeyrətli oğulları sinələrini sipər edib, ermənilərin bir addım belə irəli gəlməsinə göz yummadılar. Həmin igidlər sırasında Mirəsgər Seyidov da var idi. Döyüşlərə könüllü qatılan Mirəsgər ən çətin anlarında belə silahdaşlarının köməyinə çatır, düşmənə ağır zərbələr vurur. 1992-ci il iyun ayının 14-də o, sonuncu döyüşdə mühasirəyə düşən yoldaşlarını xilas etməyə çalışarkən ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb. Vətənin igid oğlu Naxçıvan şəhər Şəhidlər xiyabanında dəfn edilib."

Tədbir iştirakçıların diqqətinə o da çatdırılıb ki, ölkəmizin ərazi bütövlüyünün qorunması üçün layiqli xidmətlər göstərib, vətəndaşlıq borcunu yerinə yetirən Mirəsgər Seyidov ölümündən sonra ölkə rəhbərinin 18 dekabr 1992-ci il tarixli Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb. Oxuduğu Naxçıvan şəhər 15 saylı tam orta məktəb qəhrəmanın adını daşıyır. Həmçinin 2016-ci il dekabrın 16-da İctimai televiziya onun həyat və döyüş yolundan bəhs edən sənədli film çəkib.

**Zəfər ORUCOĞLU**

# Vətən eşqi...

**Mirsəfa Mirbaba oğlu Mirəşrəfbəyli yaşamağı, həyatı çox sevsə də İkinci Qarabağ müharibəsində Vətəni, torpağı hər şeydən üstün tutdu. Tarixin haqdan doğulan günü- 2020-ci il 27 sentyabrda əlinə silah alıb odlu- alovlu səngərə atıldı. Nə ölümdən qorxdu, nə də ki, erməni dığasından. Arzusu isə savaş meydanda yağıya qan qusdurub 30 il əsarətdə qalan torpaqları azad etmək idi. Və bu müqəddəs yolda son damla qanına qədər mərdliklə döyüşdü, ömrünün 26-cı ilində şəhid oldu. Bununla illərlə həsrətlə bizi gözləyən əsir Qarabağımızın mətin, xilaskar ərənləri kimi tarixin şərəf səhifəsində iz qoymaqla ölümsüzlüyə qovuşdu.**

Yurdu, torpağı canından əziz bilən Mirsəfa Mirəşrəfbəyli Cəlilabad rayonunun Badamağac kəndində dünyaya göz açıb. Qeyrət qanı, vətənpərvərlik duyğuları, yurda olan məhəbbət eşqi uşaqlıq çağlarında onda formalaşıb. Orta məktəbi bitirib həyata qədəm qoyandan ağılı, insanlarla ünsiyyət mədəniyyəti, Vətənə sevgisi ona hörmət qazandırıb. Həqiqi hərbi xidmətə yollananda Qarabağın yağı düşməndən azadlığını düşünüb. Cəbhə bölgəsində doğma Azərbaycanın keşiyində durub, ona olan oğulluq borcunu ləyaqətlə yerinə yetirib. Bütün təlimlərdə fədakarlıq, mərd-



lik göstərib. Vətən naminə qürur, heyrət doğuran məqamlarla əsgərlik həyatına dəyər qatıb. Həmçinin erməni dığalardan qisas alacağı günü də intizarla gözləyib. Elə Vətənin yaşaması üçün ömrünü hərbiyə bağlayıb. 2016-2020-ci illərdə Daxili Qoşunların "Pələng" və bir müddət "Şahin" Xüsusi Təyinatlı Dəstələrində xidmət edib, məqamında düşmənə gücünü göstrməkdən ötrü hərbin sirlərini mükəmməl öyrənib.

Daxili Qoşunların çavuşu olan Mirsəfa Mirəşrəfbəyli 27 sentyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılda, Füzulidə gedən ağır döyüşlərdə qəhrəmanlıq səhifəsi yazıb. Erməni silahlı birləşmələrinə sarsıdıcı zərbələr endirməklə onların kabusuna çevrilib. Hər günü zəfərlə başa çatan qəhrəman Vətən sevdalısı oktyabrın 11-də Füzulidə həyata keçirilən hücum zamanı dığaların xain gülləsinə tuş gələrək şəhadətə ucalıb. Əbədi olaraq Cəlilabad rayonunda sevdalandığı torpağın sinəsinə baş qoyub. Dövlət tərəfindən "Vətən uğrunda", Füzulinin, Cəbrayılın, Xocavəndin azadlığına görə medalları ilə təltif edilib.

Mirsəfanın şərəfli ölümü Vətəninə, millətinə başucalığı gətirdi. Milyonların ürəyində özünə yer edən bu qəhrəman daim xatirələrdə yaşayacaq.

**Zəfər ORUCOĞLU**
***Vətənin qəhrəman oğlu...***

# ABŞ büdcəsindən ayrılan pullarla narkotik yetişdirilib




## USAİD-ə büdcədən axan pullar LGBT-ni "çiçəkləndirməyə" və narkotik istehsalına vüsət verməyə xərclənib...

**Kolumbiya prezidenti Qustavo Petro bu günlərdə Nazirlər Şurasının iclasında "Kokain viskidən pis deyil" ifadəsini işlətməsi dünyanın diqqətini çəkib. Prezidentin tapşırığı ilə görüş canlı yayımlanıb. Lazımi səs-küyü yaradan Qustavo Petro deyib:**

"Amerikalıları fentanil öldürür. Kolumbiyada onu istehsal etmirlər. Onlar fentanildən Meksikanı günahlandırmaq üçün istifadə edirlər. Fentanil isə ABŞ transmilli korporasiyalarının əczaçılıq preparatı kimi meydana çıxdı. Ondan istifadə edən cənablar asılı oldular, çünki o, həddən çox asılılıq yaradır və öldürür. İndi bunun günahı meksikalıların üzərində qalır. Əslində heç də belə deyil. Günah ABŞ biznesinin üstündədir".

### Bütün bunlar nə deməkdir?

Gəlin hadisənin təfərrüatlarına baxaq. Öncə onu xatırladaq ki, ABŞ-ın fentanillə bağlı ittihamlarına Çinin rəsmi nümayəndələri dəfələrlə cavab veriblər. Yanvarın 26-da isə Tramp və Petro arasında diplomatik böhran fonunda Çinin Kolumbiyadakı səfiri qeyd edib ki, ölkələr "diplomatik münasibətlərdə ən yaxşı dönəmi" yaşayırlar. Qustavo Petronun çıxışı ərəfəsində Ağ Ev Mask və Trampın USAİD-ə hücumlarına dair izahat dərc edib.

Bu günlərdə prezident Tramp USAİD-i ləğv etdi. Ağ Evin saytında USAID-in dövlət xəzinəsindən aldığı vəsaitlərin sui-istifadə yolu ilə vergi ödəyicilərinə hesabat vermədən və heç bir nəzarət olmadan bürokratların gülünc və zərərli layihələrinə külli miqdarda pul xərclədiyi açıqlandı. Üstəlik, USAİD-in hansı istiqamətlərə pul xərclədiyi də göstərilib:

1. "Serbiyanın işçi qüvvəsi və biznes icmalarında bərabərliyi və inklüzivliyi təşviq etmək" üçün 1,5 milyon dollar;

2. Kolumbiyada "transgender operası" üçün 47.000 dollar;

3. Peruda "transgender komiksi" üçün 32.000 dollar;

4. Qvatemalada cinsiyyətin dəyişdirilməsi və "LGBT fəallığı" üçün 2 milyon dollar;

5. Müəyyən edilmiş terror təşkilatlarına bağlı qeyri-kommersiya təşkilatına yüz minlərlə dollar - hətta baş müfəttiş istintaqa başladıqdan sonra da;

6. Suriyada Əl-Qaidə yaraqlılarına yüz minlərlə dollarlıq yemək göndərilib;

7. İnkişaf etməkdə olan ölkələrdə "fərdiləşdirilmiş" kontraseptivlərin və doğuşa nəzarət vasitələrinin çapı maliyyələşdirilib və s.

O da iddia olunur ki, pnilliklər ərzində ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) vergi ödəyicilərinə hesabat verməyib, külli miqdarda pulları korrupsioner bürokratların şübhəli layihələrinə nəzarətsiz xərclənib.

Xatırladaq ki, hələ 2018-ci ildə (21.06.2018) USAID-in Əfqanıstandakı layihələri və "Breitbart" saytındakı məqalə haqda maraqlı nüans var idi. "Breitbart" saytının "Feds: U.S. Taxpayer Funds Helping Irrigate, Fertilize Afghan Opium Funding Taliban" adlı məqaləsində qeyd olunurdu: "ABŞ-ın Əfqanıstanın Yenidənqurulması üzrə Baş Müfəttiş Ofisi (SIGAR) orada xaşxaş becərilməsinin dəstəklənməsi üçün ABŞ tərəfindən maliyyələşdirilən Alternativ İnkişaf Layihələrindən (ADP) istifadə edildiyini bildirib".

2005-2008-ci illər arasında USAID fermerləri və narkotik tacirlərini tiryək yetişdirməkdən və ticarətindən çəkindirməyə yönəlmiş uğursuz layihələri maliyyələşdirmək üçün ən azı 330 milyon dollar ayırıb. "SIGAR"ın rəhbəri Con Sopko aşkarlayıb ki, kənd təsərrüfatının inkişafı proqramları, yəni kanalların bərpası üçün istifadə edilən proqramlar Vaşinqtondan üç dəfə böyük ərazini münbit hala gətirib və "təsadüfən" xaşxaş becərilməsini təşviq edib. "SIGAR" hesabatında deyilir: "Bəzi ərazilərdə inkişaf proqramları təsadüfən xaşxaş istehsalını dəstəkləyib. Buna misal suvarma sistemlərinin bərpası və inkişafıdır. ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) Əfqanıstanın Şərq və Cənub kanallarını bərpa edərək 113 808 hektar ərazinin məhsuldarlığını artırdığını bildirib.

Peyk məlumatları göstərir ki, bəzi ərazilərdə [USAID-in Qəndəhar Ərzaq Zonası proqramı] irriqasiya proqramı təkmilləşdirilmiş suvarma sistemləri vasitəsilə kənd təsərrüfatına ayrılan torpaqların həcmini artırıb, eyni zamanda tiryək əkilməsinin artmasına da töhfə verib. Həmçinin məlum olub ki, USAID-in bəzi layihələri tiryək yetişdirmək üçün istifadə edilən kənd təsərrüfatı avadanlıqları və gübrələr üçün vəsait təmin edib".

Bəzi detallara diqət edək - fevralın 2-də ABŞ-ın yeni XİN rəhbəri Marko Rubio miqrantların deportasiyası məsələsində Kolumbiya prezidenti Qustavo Petro ilə razılığa gəldi. Fevralın 3-də USAİD-i nəzərdən keçirmək və ona nəzarət etmək üçün Pit Marokkonun namizədliyi irəli sürüldü. Fevralın 4-də Qustavo Petro "kokain viskidən pis deyil" bəyanatı ilə dünyanı bir-birinə vurmaq qərarına gəldi. Belə görünür ki, narkobazarların, tranzit marşrutlarının və əsas operatorların konfiqurasiyası dəyişir.

Bəs, narkotikin əsas axını hara yönələcək: çöküş ərəfəsində olan Avropaya? Həmçinin, Trampın USAİD-i hansı səbəblərdən ləğv etdiyi bəlli oldu. Sən demə, USAİD-ə büdcədən axan pullar LGBT-ni "çiçəkləndirməyə" və narkotik istehsalına vüsət verməyə xərclənib.

**İ.SABİRQIZI**



# "Ölüm bazarı" uğrunda savaş

## Narkotik marşrutuna nəzarət necə vətəndaş müharibəsinə çevrilir?



**Bəzən vətəndaş müharibəsi kimi görünən savaşların pərdə arxasında ağlagəlməyən məqamlar olur. Elə məqamlar ki, onlar bir dövlət rəsmisinə yaraşdırıla bilmir. Ağla da gəlmir ki, siyasi, yaxud daxili çəkişmələrin real səbəbləri fantastik maddi gəlirlər, yaxud həmin "çirkli pullar"ın axdığı yollara nəzarətdir. Bu çəkişmə hansısa məhsulun bazarına nəzarət də ola bilir. Buna "ölüm bazarı", "ölümün satıldığı bazar" da demək olar ki, dünyanın bütün ölkələrində var. Bizim ölkəmiz də istisna deyil.**

İnid isə "ölüm bazarı"na nəzarət uğrunda bütün çılpaqlığı ilə özünü ortaya qoyan bir neçə nüansı qeyd edək. Məlumdur ki, dünya narkotik istehsalının əsas bazalarından biri Latın Amerikasıdır. Bölgəyə aid sosial şəbəkələrdə yayılan məlumatlara görə, Kolumbiyanın Katatumbo şəhərində vətəndaş müharibəsi alovlanıb. Belə fikir səsləndirilir ki, hər şey bəzi əks-agentlərin bir partiya kokaini itirməsi ilə başlayıb. Amma region əslində kokainin Avropaya və ABŞ-a göndərildiyi əsas nöqtələrdən biridir. Marşrut bir neçə ölkənin, o cümlədən Venesuelanın cəngəlliklərindən keçir. Marşrutun təxmini gəliri ildə altı milyard dollardır.

Müxalifət mediası yazır ki, bütün bu qarşıdurmanı Venesuela prezidenti Nikolas Maduro törədib. Deyilənlərə görə, prezident Maduro həqiqətən də Katatumbonu Kolumbiyadan almaq istəyir və bu məqsədlə marksist ideologiyalı partizan döyüş dəstəsi olan "ELN"dən (National Liberation Army) radikallar gətirərək bölgəyə, dolayısı ilə yerli narkotik ticarətinə nəzarəti ələ keçirməyi planlaşdırır. Digər tərəfdən, Kolumbiya prezidenti Kolumbiya prezidenti Qustavo Petronun, "kokain heç də viskidən pis deyil" replikası yayılıb. Onun açıqlaması sanki şərabı mədh edən saqilərin bihuşluğuna haqq qazandıran sözlərini xatırladır. Qustavo, "Kokain ona görə qanunsuz deyil ki, o viskidən daha ziyanlıdır. Kokain ona görə qanunsuzdur ki, o Latın Amerikasında istehsal olunur. O viskidən daha zərərsizdir, bunu alimlər təsdiqləyir. Kokain viskidən pis deyil. Və məhz Amerikanın payına düşən kokain viskidən daha zərərsizdir. Fentanilə gəlincə isə, bu, onları həqiqətən də öldürür", deyə kokainə tərif üstündən tərif deyir.

Əgər bir prezident narkotik marşrutuna nəzarət uğrunda ölkəni qan çanağına bulayırsa, başqa bir prezident kokaini bahalı içki kimi mədh edirsə, hansı ki, dövlət başçısının vəzifəsi dövləti qorumaqdır, burada sözlər yetərsiz qalır.

Belə görünür ki, istənilən ölkədə narkoticarətin vüsət almasının arxasında yüksək çinli rəsmilər durur. Bizə gəlincə, Azərbaycanda narkomaniyaya qarşı mübarizə Prezidentin rəsmi göstərişi ilə dövlət səviyyəsində gedir. Narkomaniyanın tam çökdürülməsi Azərbaycanın milli təhlükəsizlik məsələsi və hədəfidir. Amma bir halda ki, ölkədə narkotik alveri çökdürülə bilmir və "ölüm bazarı"nda tam gücü ilə şıdırğı alver gedir, demək, sözün mənfi mənasında "qalstuklu köstəbəklər" məqsədlərinə nail ola bilirlər. Amma hələlik...

**İ.SABİRQIZI**



# ACI XURMA

Fəridə məktəbdə təmizlik işlərini görüb başa çatdırmışdı. Bir az əyləşib yorğunluğunu çıxarandan sonra evə getməyə hazırlaşırdı. Xadimə işlədiyi məktəbin ikinci mərtəbəsinin pəncərəsinin qabağında oturub həyətə baxa-baxa xəyala daldı. Yenə həmişəki kimi, özü də istəmədən ürəyində ən çox sevdiyi el bayatısı təkrarlanmağa başladı...



(Hekayə 44 günlük müharibədə yaşanmış real bir ailə dramı əsasında yazılıb)

***(Əvvəli ötən sayımızda)***

Fəridənin işə necə çatmağından belə, xəbəri olmadı. Məktəbə çatanda indiyə qədər görmədiyi mənzərə ilə rastlaşdı. Məktəbin kollektivi bir nəfər kimi həyətə toplamışdı, öz aralarında nəsə yavaş-yavaş danışırdılar. Onu görən kimi dərin bir sükuta qərq oldular. Fəridə buna bir anlam verə bilmədi. Nəyə görə bütün müəllimlər səhər-səhər məktəbə yığışıb? O, müəllimlərə yaxınlaşıb astadan salam verib keçmək istədig Təəccübünə rəğmən, salamını alan olmadı, başını qaldırıb müəllimlərin üzünə baxdı. Bəzilərinin sifətində kədər, bəzilərində təəssüf, bəzilərində acımaq hisslərini gördü. Qadın müəllimələrin hamısının gözləri ağlamaqdan şişib qızarmışdı. Məktəbin direktoru ağsaçlı başını iki əli ilə tutmuşdu, elə bil saçlarını yolmaq istəyirdi. Fəridənin ürəyi daha da sıxılmağa başladı. Özünü zorlayıb ortalığa soruşdu: "Nə olub?".

Onun xətrini istəyən qadın müəllimələrdən ikisi hönkürhönkür ağlamağa başladı. Direktor yerdən başını qaldırıb, "Qızım, sən bu gün işləmə, get evə" dedi. Fəridə buna bir anlam verə bilmədi. Axı nə üçün o işlərini görmədən evə qayıtmalıdır?! Fəridə bunun səbəbini soruşmaq istəyirdi ki, qadın müəllimələr ağlaya-ağlaya hər tərəfdən ona yaxınlaşıb qucaqladılar.

...Fəridə gözlərini açanda özünü məktəbin tibb məntəqəsində uzanmış halda gördü. Yavaş-yavaş huşu özünə gəlməyə başladı. Deyəsən, ona tibbi yardim göstərmişdilər, cünkü qolunda iynə yeri var idi. Bir az sakitləşmişdi. Gözlərini döndərib otağa göz gəzdirdi. Məktəbin bütün qadın müəllimələri onun başı üstündə durmuşdu. Artıq hər şeyi anladı. Demək ki, cəbhədən bəd xəbər var. Ürəyində Allahdan oğlunun şikəst olsa belə, evə sağ-salamat qayıtmasını istədi... Onun son ümidi bu idig Amma içindəki ümid çox zəif idi və sürətlə öləziyərək yerini ümidsizliyə verməyə başlamışdı. Fəridənin vəziyyəti incə bir teldən yapışmış insanın boğulmaqdan xilas olmaq cəhdinə bənzəyirdi. Fəridə ümumi ortaya belə bir sual verdi: "Igiddən xəbər var?" Müəllimələrdən biri, "Özünü əla al, sən ləyaqətli qadınsan, İgid kimi övladla fəxr etməlisən. Onunla indi bütün Azərbaycan fəxr edir. Cəbhədə qəhrəmancasına döyüşüb. Neçə-neçə düşməni məhv edib. Zatən onu sən vətən üçün, dövlət üçün bir əsgər kimi böyütdünü deyirdin. Vətənə övladlıq borcunu vermək üçün o, özü könüllü bu yolu seçdi. Olacaga çarə yoxdur. Yüzlərlə igid oğlumuz şəhid olub. Nə etmək olar, İgid də müqəddəs şəhidlik zirvəsinə yüksəlib". Fəridə bu xəbəri axıra qədər yaxşı eşidə bilmədi, çünki yenidən husunu itirmişdi.

İgidin nəşi necə gətirildi, necə dəfn edildi - Fəridənin yadında deyildi. Fəridə tibbi nəzarət altında saxlanırdı. Tez-tez sakitləşdirici iynələr vurulur, sistemlər qoşulurdu. Evdə, həyətdə, küçədə insan əlindən tərpənmək mümkün deyildi. Tanış, yad minlərlə insan İgidin yasında öz əzizlərinin yasındakı kimi, bəlkə ondan da artıq can yanğısı ilə iştirak edirdilər. Hər gün minlərlə insan qəbir üstünə gedirdi.

Fəridə oğlunun yeddisi çıxandan sonra baş verənləri yavaş-yavaş dərk etməyə başlayırdı. Demək, artıq həyatda onu bu dünyaya bağlayan kimsə və nəsə qalmayıb. Yaxın qohumlar və rəfiqələri onu tək buraxmırdı. Hər gün evə çoxlu tanımadığı insanlar gəlirdi. Rayon rəhbərliyi bütün dəfn adətlərini dövlət hesabına təşkil etmişdi.

Fəridə bütün olub-keçənləri bir tamaşaçı kimi izləyirdi. Nə özünü ələ ala, nə də ağlaya bilirdi. Hətta anası, "Qızım, ağla, ürəyini boşalt", - desə də Fəridə heç bir məna ifadə etməyən nəzərlərlə ətrafı süzür, amma heç bir cavab vermirdi. O, özünü kimsəsiz adaya düşən insan kimi tək və tənha hiss edirdi.

gİgidin tabutuna bürünmüş Azərbaycan bayrağı və ağ parçaya bükülmuş bir boxça stolun ütündə idi. Zatən o bayraq haqqında İgidə çox şerlər əzəbərlətmişdi, ona vətən sevgisini özü aşılamışdı. Özü yıxılan ağlamaz deyiblər...

Fəridə stola yaxınlaşdı, bayrağı öpüb gözlərinə sürtdü, ondan İgidin ətri gəlirdi. Ürəyi xeyli sakitləşdi. Gözlərinə işıq gəldi. O, həmişə öz-özünə, "bir məişət hadisəsində ölməkdənsə, müharibədə qəhrəmancasına şəhid olmaq yaxşıdır", - deyə düşünürdü. Ona görə, başqa şəhid xəbəri eşidəndə onların analarının əvəzinə öz-özünə təsəlli tapırdı. İndi isə tək oğlu - İgidi şəhid olmuşdu. Həm də igidliklə vuruşaraq şəhid olmuşdu. Deyilənlərdən məlum olurdu ki, elə Poladın intiqamını da ala bilmişdi. Çoxlu düşmən əsgər və zabitini məhv etmişdi, sonda düşmənin torpağa basdırdığı minaya ilişərək, qanı vətən torpağına tökülmüşdü.

"Bayraqları bayraq edən üstündəki al qandır,

Torpaq - uğrunda ölən varsa vətəndir".

Bu misralar İgidin tez-tez təkrar etdiyi misralar idi. İndi İgid Azərbaycan bayrağına tökülmüş qanı ilə onu dünyanın ən uca bayrağı, torpağa tökülən qanı ilə onu özünə həqiqi və əbədi vətən etmişdi.

Fəridə əvvəl boxçaya məhəl qoymadı. Amma sonra hansısa bir hiss onu boxçaya meylləndirdi. Titrək əlləri ilə boxçanı açdı. Boxçada Igidə məxsus əşyalar, döyüş zamanı üstündə olan paltarlar var idi. Ən ustə İgidin qana, toz-torpağa bulaşmış hərbi köynəyini qoymuşdular. O, qeyri-ixtiyari köynəyi üzünə yaxınlaşdırdı. Sanki üzü İgidin üzünə dəydi. Ani olaraq kədər qarışıq sevinc hissi yaşadı. Tez də bu hiss öz yerini ağır, üzücü, sonsuz bir kədərə verdi. Fəridə əli ilə vaxtilə hər gün İgidin başını sığalladığı kimi koynəyi sığallamağa başladı. Əli koynəyin cibində qabarıq bərk bir şeyə dəydi. Fəridəni maraq götürdü -"bu nədi belə?". Ehtiyatla köynəyin cibinin düymələrini açdı, orada kağıza bükülü bir şey vardı. Fəridə kağızı açdı və yerindəcə donub qaldı. Kağızın içindəki İgidi müharibəyə yola salarkən ona verdiyi Məkkədən gələn həmin xurma idi. Fəridə bu xurmaya çox ümid etmişdi... O, düşünürdü ki, İgid bu təbərrükü yesə, Allah onu amanında saxlayar. Amma İgid o xurmanı anasız yeməyə qıymamışdı, anasından ən əziz bir xatirə kimi ürəyinin başında saxlamış, döyüşün ən ağır vaxtlarında özünü xurmanın onu qoruyacağına inandımışdı. Bu xurma həm də anası ilə onun arasında sanki bir körpü yaratmışdı. Xurmadan anasının qayğısını, məhəbbətini, onu böyüdərkən çəkdiyi zəhmətin ağrılarını hiss edirdi. Düşünürdü ki, müharibədən sağ-salamat qayıtdıqdan sonra o xurmanı anası ilə birlikdə yeyər, bununla da xurma onları bir daha birləşdirərg

Fəridə qeyri-ixtiyari xurmadan kiçik bir parça qopardı. Allahdan dözüm diləyərək bu təbərrükü ağzına qoydu. Dərhal da ağzından çıxardı. Xurma zəhər kimi acı idi. O, ömründə belə bir acılıq dadmamışdı... Xurmanın dadi Fəridənin dil-dodağını yandırdı. Fəridə heç nə anlamadı. O, eyni xurmanın birinin bal kimi şirin, digərinin zəhər kimi acı olmasına bir məna verə bilmədig

Əslində, bu xurma da bal kimi şirin idi. Fəridəni acılayan xurma yox, təbərrük kimi xurmaya bəslədiyi ümidin boşa çıxması və oğul itkisinin onda yaratdığı acılıq idi... Onu acılayan dad xaricdən yox, daxildən gəlirdi. O bilmirdi ki, hələ bu acılığı bütün ömrü boyu, bu dünyanı tərk edənə kimi, dəfələrlə, az qala gündə yüz dəfə, İgidsiz yediyi hər şeydə, onsuz keçirdiyi hər anda dadacaqdı və yalnız gözlərini bu dünyaya qapayıb Fəridinin, İgidinin getdiyi aləmə yola düşəndə ondan birdəfəlik xilas olacaqdı...

**AZAD**

Fəridə stola yaxınlaşdı, bayrağı öpüb gözlərinə sürtdü, ondan İgidin ətri gəlirdi. Ürəyi xeyli sakitləşdi. Gözlərinə işıq gəldi. O, həmişə öz-özünə, "bir məişət hadisəsində ölməkdənsə, müharibədə qəhrəmancasına şəhid olmaq yaxşıdır", - deyə düşünürdü. Ona görə, başqa şəhid xəbəri eşidəndə onların analarının əvəzinə öz-özünə təsəlli tapırdı. İndi isə tək oğlu - İgidi şəhid olmuşdu. Həm də igidliklə vuruşaraq şəhid olmuşdu...

# Azərbaycan da İranla sərhədə hasar çəkməlidir?

## Əks halda ölkədəki narkotik ticarətinin qarşısını almaq çox çətin olacaq...

Türkiyə Van vilayətinin İranla sərhədi boyunca 182 kilometrlik divarın tikintisini başa çatdırıb. Bu barədə "Azad İran" "Telegram" kanalı xəbər verir. Rəsmi mənbələr bildirir ki, divar qaçqınların ölkəyə qanunsuz girişinin və qaçaqmalçılıq yolu ilə malların keçirilməsinin qarşısını almaq üçün tikilib.






Bu haqda hələ 2023-cü ilin sentyabr ayında informasiya verilmişdi ki, qardaş ölkə İranla 560 kliometrlik sərhəddən terrorçu, narkotik, silah qaçaqmalçılığının qarşısını almaqdan ötrü 4 metr hündürlüyündə təhlükəsizlik divarı çəkir. Bir müddət öncə bu sərhəddən narkotiklə yanaşı, əfqan mühacirlər də axın-axın keçirdi ki, bu “insan seli”nin dinc şəxslər, yaxud hərbi təlim keçmiş tam hazırlıqlı terrorçu olub-olmamasının heç bir zəmanəti yoxdur.

Türkiyənin sərhədinin təhlükəsizliyi üçün tikilən divarlar 3 metrlik ülgüc məftillə örtüldüyü halda, digər tərəfdə də səngərlər qazılır.

Vaxtilə Türkiyə-Suriya sərhədində də terrorçuların maneəsiz hərəkətinin qarşısının alınması üçün belə hasar var idi. İndi isə İranın narkotik savaşı Azərbaycanla yanaşı, Türkiyəyə qarşı da yönəldiyindən, qardaş ölkə sərhədə təhlükəsizlik divarı çəkməyə məcbur oldu.

Qeyd edək ki, molla rejiminin artıq bir neçə ildir Azərbaycana “böyük həvəslə” narkotik axınını gerçəkləşdirdiyini nəzərə alsaq, biz də İranla sərhədboyu hasar tikilməsi, istehkam qurğularının quraşdırılması variantını gözdən keçirməliyik. Amma məsələ yalnız bununla bitməməlidir. Yeni rəqəmsal vasitələrdən də istifadə olunmalıdır. İranla həm dəniz, həm də quru sərhədimizin tam nəzarətə götürülməsinə başlanılmalıdır.




Məsələn, sərhədə nəzarət sisteminə peyklərlə nəzarət də qoşulmalıdır. 44 günlük müharibədə və daha sonra erməni silahlı dəstələrinin Qarabağda hərəkət trayektoriyasını izləmək üçün bu üsuldan istifadə edildi. Müasir dövrün mübarizə üsulları da müasir metodlarla aparılmalıdır. Əgər kosmosdan, peyklərdən erməni dəstələri izlənə bilirsə, sərhəd bölgəsində yerləşdiriləcək - quraşdırılacaq qurğularla narkobaronların narkotik marşrutlarının reysləri də izlənilə bilər.

Ən azı sovet dönəmində olduğu kimi, çalışmaq lazımdır ki, İrandan bu tərəfə “quş keçməsin”. İlk öncə sərhəd boyunca müasir tələblərə cavab verən istehkam qurğuları qurulmalıdır. İranın ölkəmizə quru (hələ ki, quru və dəniz yolundakı narkotrafiki bilirik, amma hava yolu ilə də narkotrafik həyata keçirilir, ya yox, bunu da araşdırmalıyıq - müəl.) və dəniz yolu ilə uzanan narkotrafikinin qarşısı təxirəsalınmadan kəsilməlidir. Əks halda ölkədəki narkotik ticarətinin qarşısını almaq çox çətin olacaq...

**İ.SABİRQIZI**

# Qərbi Zəngəzurun Qapan nahiyəsi

## *(“Qərbi Azərbaycanın Türk-Müsəlman əhalisinin II Dünya müharibəsində iştirakı” silsiləsindən)*

**Oxçuçay, Mehriçay və Bazarçay hövzələri, Qarabağ dağlıq yaylasının qərb yamacları, Zəngəzur-Qazangöl və Mehri-Xustup dağları boyunca yerləşən Qərbi Zəngəzurun Qapan nahiyəsinin kəndlərinin (Yuxarı və Aşağı Gilətağ, Müsəlləm, Yuxarı və Aşağı Gödəkli, Sığönaqg) bir neçə min əhalisi 1939-1945-ci illərdə II Dünya-Böyük Vətən müharibəsində iştirak etmiş, bir neşə yüz nəfəri hətta Berlin şəhərinədək müzəffər döyüş yolu keçmiş, amma çox təəssüf ki, bir çoxları bu müharibədən geri qayıtmayıb...**

Müharibə veteranları ilə yanaşı xələfləri də Qərbi Azərbaycanın ən fəal qurucuları olmuş, bu əski Türk-Müsəlman bölgəsinin inkişaf etdirilməsi naminə bütün sahələrdə xidmətləri ilə fərqlənmişlər.



Nahiyənin Yuxarı Qaraçimən kənd sakinlərindən 35 nəfərə qədər müharibədə iştirak edib, onlardan 15-16 nəfəri (həmin ərəfədə 50-yə qədər evi olan bu kənd Zəngilan rayonunun inzibati-ərazi vahidi olub) geri qayıtmayıb:

- İsa Hüseynalı oğlu Hüseynov, 1 qızı, 1 oğlu qalıb;
- Abbas Əhməd oğlu Bayramov, 2 oğlu qalıb;
- Səməd Abusəməd oğlu Almuradov, 1 qızı qalıb;
- Əyyub Əmirov, 1 qızı qalıb (əslən nahiyənin Keypəşin kəndindən olub, bu kənddə ailə qurub);
- Həmid Ağamalı oğlu Haxıyev, 1 oğlu qalıb;
- Hüsü Məmməd oğlu Məmmədov, subay;
- Alış Namaz oğlu Əsgərov, subay;
- Xansuvar Musa oğlu Ağakişiyev, subay;
- Zülfüqar Musa oğlu Ağakişiyev, nişanlı;

(Xansuvar və Zülfüqar əkiz qardaş olublar, 1922-ci il təvəllüdlü).

- Allahqulu Cahangir oğlu Salmanov, evli, uşağı olmayıb;
- Abdulla Namaz oğlu Əsgərov, evli, uşağı olmayıb;
- Şahmirzə Pənah oğlu Babayev, 1 oğlu, 2 qızı qalıb;
- Əyyub Minbaşı oğlu Əmirov, 1 qızı qalıb;

Müharibədən qayıdanlar:

- Şahsuvar Musa oğlu Ağakişiyev (1924-2007), Bakı şəhəri məktəblərinin birində ibtidai sinif müəllimi işləyib;
- Musa Xudayar oğlu Mehdiyev (1914-1989), rus dili müəllimi, Zəngilan rayonu, Seyidlər kəndi ərazisindən boşalmış kəndlərinə baxanda (ara məsafə 2 km olar) bayatı deyərkən ürəyi partlayıb, Şirvan şəhərində dəfn edilib;
- Məmiş Mehdiqulu oğlu Qasımov (1925-2016), Mozdok-Krım cəbhəsində döyüşüb, riyaziyyat müəllimi olub;
- Məmiş Mövsüm oğlu Haxıyev (1894-1974);
- Ağamurad Cəfərxan oğlu Nəsirov (1895-1975);
- Əli Pənah oğlu Babayev (1915-1992), Abşeron rayonu, Fatmayı kənd qəbirstanlığında (2-li sovxoz ərazisi) dəfn ediliub;
- İbrahim Hüseynqulu oğlu Hüseynov (1895-1970);
- Fərhad İman oğlu Babayev (1890-1986);
- Dadaş Soltan oğlu Camalov (1919-2004), Sumqayıt şəhər qəbirstanlığında uyuyur;

(Fərhad və Dadaş Berlin şəhərinədək döyüşlərdə və partisan hərəkatında iştirak ediblər, müharibədən qayıtdıqdan sonra Sibirə sürgün ediliblər, 1956-cı ildə Vətənə qayıdıblar).

- Tağı Allahyar oğlu Tağıyev (1896-1991);

R.S. I Qarabağ müharibəsində əslən Yuxarı Qaraçimən kəndindən olan Azərbaycan Milli Ordusunun əsgərləri də işğalçılara qarşı mərdliklə döyüşmüşlər:

- Hidayət Surxay oğlu Haxıyev (1960);
- Musa Şahsuvar oğlu Ağakişiyev (1960);
- Vilayət Qaytaran oğlu İskəndərov (1972);

II Qarabağ müharibəsi qaziləri:

- Elşən Hidayət oğlu Haxıyev (1989);
- Elvin Natiq olsun İskəndərov (1988);
- Musa Tahir oğlu Mehdiyev (1991);
- Tahir Musa oğlu Mehdiyev (1992), Zəngilan-Qubadlı cəbhə xəttində;
- Fərman Sabir oğlu Hüseynov (1992), Füzuli-Cəbrayıl səbhə xəttində;
- Xalid Nəriman oğlu Mehdiyev (1999), Qubadlı rayonu urunda döyüşlərdə;
- İsa Barat oğlu Hüseynov (1987), Beyləqan hərbi hissəsində;

**Qismət YUNUSOĞLU**
**Bakı Dövlət Universitetinin müəllimi**

***P.S.*** *Yazının hazırlanmasında həm də Qərbi Zəngəzurun Qapan nahiyəsinin Yuxarı Qaraçimən kənd sakinləri Nüsrət Fərrux oğlu Həsənovun (1949) və Sərvər Bəhlul oğlu Hüseynovun (1964) məlumatlarından istifadə olunmuşdur.*

Adil Cəmilin 60 illiyinə mən daha çox darıxdım. Uzun illər tanıdığım və şeirlərini sevdiyim bir insan üçün təsəllim nə ola bilərdi. Bir xudmani məclisdə İlyas Tapdıq, Oqtay Rza, Kələntər Kələntərli (Allahdan rəhmət diləyirəm mərhum-lara) və Adil Cəmil olmaqla söz - məqama yetişdi, Oqtay Rza dedi ki, Allahverdi, şairin - əlini Adil Cəmilə uzatdı - 60 illiyi gəlir, bəlkə bir söz deyəsən? Mən: - sağlıq olsun, bu söz mənlikdir, - cavab verdim. Sonra düşündüm, götür - qoy elə-dim və qərara gəldim vaxt daralsa da monoqrafiya yazım. Fikrimi Adilə çatdırdım. O, sevindi və dedi: - İstərdim siz yazasız barəmdə, qələminizə hörmətim var. Belə-liklə, ay yarıma Adil Cəmilin yaradıcılığı haqqında "Sözün Adil Cəmili" ("Elm və təhsil" nəşriyyatı, 2014, 286 səh.) monoqrafiyamı nəşr etdirdim. (Kitabın adını Adil Cəmil özü seçdi). Əsər haqqında mətbuatda da məqalələr getdi, təqdir olundu. Daha sonralar şairin poeziyası barədə məqalə yazıb çap etdirdim.



# Adil Cəmil: "İnsan unudulanda..."

## (Sevdiyim şairlər...)

### Birinci məqalə

Vaxtın necə keçdiyini təsəvvür etmədim, sən demə, illər 70-ə tələsərmiş. Amma mütəmadi olaraq telefon açır, hal-əhval tuturdum, o isə nədənsə susurdu, şair üçün belə halı təbii sayıram.

Şair Adil Cəmilin 70 yaşı mətbuatda, Yazıçılar Birliyində qeyd edildi. Mər-kəzi kitabxanada sərgisi açıldı. "Gəlin, unutmayaq ki..." yazan şair haqqında ilk monoqrafiya qələmə alan müəllif yada düşmədi. Hətta əyalətdə yaşayan şair dostum, tələbəmdən məktub aldım bu günlərdə, adını çəkməməyimi xahiş elə-miş-dir: "Ustadım, eşitdiyimə görə Adil Cəmil sizi tamamilə unutmuş, tədbirlərinin heç birinə sizi dəvət etməmişdir. Hətta Sərvaz Hüseynoğlu Adil Cəmil haqqında bəsit məqaləsini "Ədəbiyyat qəzeti"ndə çap etdirmişdir. Qeyri - professionallıqla yazılmış bir yazıda 220 misra şeir nümunəsi vermişdir. Necə ola bilər Adil Cəmil sizi xatırlamasın... Səbəbi nədir görəsən? Unutqanlıq, cəsarətsizlik, yoxsa?!"

Düzü, məktub məni məyus elədi: Səhhətimin yerində olmayan günlərində möhtəşəm bir kitabı ərsəyə gətirən ədəbiyyatşünası, pedaqoqu yada salmamaq? Halbuki, monoqrafiyada ən çox vurğuladığım Adil Cəmilin şəxsiyyəti, insanlıq fenomenliyidir. Axı, şəxsiyyəti olmayan insan necə şair, yazıçı, alim olar bilər? Amma mən Adil Cəmili şair kimi bu gün də təqdir edirəm

Bu günlərdə "Ədəbiyyat qəzeti"ndə silsilə şeirlərini oxudum və kövrəldim ki, 70 yaşına bu tezliklə çatdı. "Gəlin, unutmayaq", "Biz gəldi gedərik", "Qalmadı" şeirlərini şair hansı hisslərin ovqatında yazmışdır: tənhalığınmı, qocalığınmı?

***Tənhalıq yad deyil, bəşər əhlinə,***
***Bu böyük dünyada hər insan təkdir.***
***Bədən ölüb gedir, ruh yaşayırsa,***
***Ölüm ölüm deyil, yer dəyişməkdir.***

***Adamın əl izi üst-üstə düşmür,***
***Adamın səsi də eyni səs deyil.***
***Dünyada xeyirxah bir iz qoyanda***
***Məzar ölənlərə dar qəfəs deyil, -***

yazan şairin fəlsəfəsi oxucunu düşünməyə vadar edir, çün insan unudulanda fiziki çəkisini itirsə də ruhu yaşayır:

***Gəlin unutmayaq, unutmayaq ki,***
***Adamlar ölürlər unudulanda.***

Alman filosofu Hegel yazırdı ki, həyatda ən böyük cəza unudulmaqdır. Mən yaşımın bu çağında belə unudulmaq istəməzdim, çün unudulanda canlı həyat da nəzərində sönür, daha doğrusu, tənhalaşırsan, deməli, qocalmısan ki... Adil Cəmil "Biz gəldi - gedərik" şeirini 70 yaşında qələmə aldı və keçmiş günlərini, illərini həzin bir duyğu ilə xatırlayır:

***Cavanlıq dediyin gözəllik imiş,***
***Çoxdan itirmişik biz gözəlliyi.***
***Qocalıq başlara qar ələyəndə***
***Solur təravətli üz gözəlliyi.***
***Bu dərd çarəsizdir, getmə dərinə,***
***Hay verən tapılmaz dərdi - sərinə.***
***Bənzəyir kül olmuş ocaq yerinə -***
***Gözləri yandıran göz gözəlliyi.***

***Qocalıq məni də atıbdır oda***
***Adili başqa kim salardı yada?***
***Biz gəldi - gedərik, amma dünyada***
***Həmişə tər qalır söz gözəlliyi.***

Hələ 70 yaş həyatda "gəldi - gedərik" hökmünü vermək deyil, baxmayaraq qocalıq ömür qapısını azansız döyür, bu səsdən ruhdan düşməyə dəyməz. Həyatın diqtəsidir, yaxşı da - zamanda ötəridir, gəldi - gedərdi, bir şərtlə insan vücudunda sevgi - məhəbbət, istək, həvəs olsun.

***Bir canıq, möhtacıq quru nəfəsə,***
***Sevgidir gətirən bizi həvəsə!***
***Ömür - gün qısadır, yolları kəsə,***
***Kim deyər yollarım kəsə qalmadı.***

Bu "yollarda" Adil Cəmil yaxşı insanlarla, bəd adamlarla da rastlaşıbdır və belələrini "Eynəkli ilan"a bənzətmişdir. Gözlüklü ilanları görmüşük, vahilənmişik. Belə eynəkli - gözlüklü ilanlar - insan xislətində son dərəcə qorxulu olur, zəhər tu-luğu ağu - yığına çevrilir, "kimi sancmasa yaşaya bilmir, nə üçün yaşadığını dərk etmir".

Şair Adil Cəmilin şeirləri məni çox-çox uzaqlara apardı, üzünə hər an tay-batay açılan qapıların "qapanması"na qədər. Nə üçün belə oldu: olmaya yaşmı gü-nahkardır, Dünyamı, yoxsa İnsanlarmı?! Dünyanı günahlandırmağa dəyərmi? Günahkar biz özümüzük! Unuduruq bir vaxt ünsiyyət bağladığımız insanları, "ye-nilərinin" axtarışına çıxırıq. Halbuki, bir zaman yetişəcək onları da yaddan çıxa-racağıq! Amma sonuncu vaqeəni istəməzdim.

### İkinci məqalə: Zabil Pərviz "Atamın əlcəkləri"

Mən əyalətdə yaşayıb yaradan qələm sahiblərinin daimi izləyicisiyəm. Elşad Səfərli, Zabil Pərviz, Seyran Cavadov, Qafar Cəfərli, Ruhəngiz Əşrəfqızı, Etibar Əbilov yaradıcılığı həmişə diqqətimdə olmuşdur. Onlar Bakıda təhsil almışlar, ilk şeirlərini bu şəhərdə yazmışlar, ilk kitablarını da. Lakin fəaliyyətlərini bölgələrdə aparmışlar. Onların ayaqları bu torpaqdan üzülməmişdi. Belə yaradıcılardan biri də şair Zabil Pərvizdir. Onunla tanışlığımın, ünsiyyətimin tarixi otuz ildən az deyil. Salyanda pedaqoji fəaliyyətimdə olarkən Pərvizlə mütəmadi görüşür, dərdləşir və yaradıcılıq söhbətləri edirdik. Xahişimlə yeni yazdığı şeirlərini oxuyurdu. Hər-çənd, az yazır, poeziyaya məsuliyyətlə yanaşır və qiymətləndirir. Bir dəfə bu barə--də Pərvizdən soruşdum, o, azacıq fikrə getdi və: - Məndən asılı deyil, - astadan dil-ləndi. - Şeir İlahi payıdır, ilhamın möcüzəsidir, oxucunu aldatmayasan. - Pərviz fikrində haqlı idi...

Zabil Pərvizin "Atamın əlcəkləri" şeirini xatırladım. Şeir məni atalıq illərinə apardı. Atam dəmiryolçu idi, evimizdə anam onun ulduzlu dəmiryolçu papağını, kitelini qoruyub saxlamışdı. Günəşin papağının və kitelinin - pencəyinin tozunu silir, qoxulayırdı. Anam atamla əlli il ömür sürmüşdü...

"Atamın əlcəkləri" xatirələr üzərində qələmə alınıb, illər dolanıb, şair - oğul atasının bir zaman işlətdiyi alətlərlə qarşılaşır - çətin və kövrək anlardır:

***Bizim bağ evimiz,***
***evimiz, eyvanımız...***
***Bu da qapısı bağlı***
***təsərrüfat damımız.***
***Açıb keçdim içəri,***
***burda nələr var, nələr,***
***Köhnə gürz, köhnə külüng,***
***və köhnə xatirələr...***

Bu alətlər sükuta dalıblar, onların sahibi isə daha yoxdur, alətlər sanki kim-səsizləşibdir, "zəhmətlə keçən ömrün bu imiş etibarı?" Bu alətlər içərisində "atılıbdır atamın köhnə iş əlcəkləri", hansı ki, "böyrü - başı sökülmüş, didilmiş əl-cəkləri". Xatirələr şair - oğulu çox uzaqlara aparır, iş üstündə ata yer şumlayır, o isə çayır yığırdı.

***Bu zindanın üstündə***
***atam dəmir döyərdi,***
***Mən daş gətirərdim,***
***dəryaz itiləyərdi.***

Zabil Pərviz xatirələrin işığında Atasının canlı surətini yaradır, ata bir az zəhmli, iş görəndə tələsən: odun yaran, gürz vuran, daş daşıyan bir insan! Dünya-sını erkən dəyişən Atanın əlcəkləri isə qalır, "atamdan çox yaşadı atamın əlcək-ləri", - deyən şair - oğulun ata nisgili obrazlaşır. Oğul - müəllif isə başqa sənəti seçdi.

***Dayanmışam, baxıram***
***biraz dalğın, pərişan, -***
***Atamın əlcəkləri***
***atam kimi tərs imiş...***

Xüsusən, yaradıcı adamların ən ağrılı yeri fəxri, yaxud maddi mukafatlardan kənarda qalmasıdır, başqa sözlə, unudulmasıdır. Mükafatlar, fəxri adlar (titullar) təəssüf ki, özünü populyar edən - kütləviləşdirən, vəzifəsini bir kənara qoyanların bəxtinə düşür. Halbuki, əyalətdə yaşayıb - yaradan ədəbiyyat və incəsənət adam-ları unudulur. Bu hissləri yaşayan istedadlı şair Zabil Pərviz "Mükafat" adlı unikal şeirini qələmə almışdır.

***Bizə heçnə vermədilər,***
***Biz də bu gündən qoparaq,***
***Vaxtımız çalıb bir qədər***
***Düşünək kimdən qoparaq.***
***Yel kəsənin yolu kəsə,***
***Ögey kimi baxdı bizə.***
***Düyün düşüb bəxtimizə -***
***Vaxtı düyündən qoparaq. -***

Gileylənən şair "əyrilərə düz deyənlər" təəssüf ki, mükafatlarını alırlar. Tale elə gətirib "qanadlı doğulmuşlar: yarı insan, yarı işıq" insan özü vücuduna çəkilib durur. Halbuki:

***Ömür uzun, ömür qısa,***
***Yaxud bizə yaxın, uzaq***
***Ölümsüz nəğmələr yazaq***
***Ölümü ölümdən qoparaq, -***

Gileylənən şair sözünü "açıqlamaya" bilmir: o mükafat alanların, fəxri ad daşıyanların "sərvəti"nin ünvanı haradadır?

***Çoxlarının fəxri adı***
***Arxivlərdə sükutdadır...***
***Əsl ölməz mükafatı***
***Ey könül, səndən qopararaq!***

Mən arabir məzarstana baş çəkirəm, tanıdığım insanları ziyarət edirəm və özümə sual verirəm: - Aldığın mükafatlar, fəxri adlar haradadır? Yalnız məzarda-şına həkk olunubdur! Bu mükafatlar bir zaman adınla qoşa çəkilirdi...

Zabil Pərviz eyni zamanda lirik - hissi şairdir, uzaqda qalmış, bu gün xatirə-yə dönmüş təəssüratını yaşayır, yaş ötsə də unudulmur. "Xatirə" şeiri məni çox uzaqlara apardı. Sönən ocağın külü qalır, buküldə qızınmaq mümkünmü?

***Mən elə bilirdim, sönüb bu ocaq***
***Külünün altında közü qalıbmış.***
***O şirin kədərin, qəmin dalınca***
***Bu dəli könlümün közü qalıbdır.***
***Mən elə bilirdim, unutdum səni,***
***Bir də oyatmaram olub keçəni.***
***Dağılıb könlümün, çiskini, çəni,***
***Bu dağı keçmişəm, düzü qalıbdır.***

Bu sevgi illər ötsə də unudulmur, "ömürlük göynəyən izi qalır".

Zabil Pərvizin "Bakı-Təbriz təyyarəsi", "Yollar", "Qismət", "Göyçə gölünə" və s. şeirləri də poetik ilhamın oyatdığı pıçıltılardır. Mənim aləmimdə şeir yazmaq cəsarətdir, şair realizmdən canını qurtarmaqdır, ritorik məfhumlardan uzaqlaşmaq-dır, yeknəsəklikdən xilas olmaqdır. Poeziyanı sevən hər bir oxucu buna sevinir. Zabil Pərviz şeiri hisslərin poeziya vasitəsilə həyata keçirir, predmetlərdə və hadisələrdə öz obrazlarını görür, axı, şeir kədərin, qüssənin yaratdığı hisslərə biganə deyil, canlı təsvirilə müşahidəsini poetikləşdirir.

**2025**

İnsan kainatın ən möcüzəli varlığıdır. Minillərdir ki, özünün psixologiyasının tərifini tapmaqda aciz olan insan özünü araşdırdıqca daha çox kainatı kəşf etməyə nail oldu, amma özünü tapa bilmədi... Özünü tapa bilməyən ulu insanlar minillər əvvəl dini inanca tapındılar.



# Qırmızı və qara

## (Stendalın eyniadlı romanı haqqında)



Fərid MURADZADƏ

Varlıq olaraq bəşər övladı tapınandır. Dini inanc üçün tapınan insanlar bir gün tapınaqlar yaratdılar və o gündən qəlblərində özləri ilə yaşatdıqları yaradanı tapınaqlara daşıdılar və min illərdir ki, tapınaqlarda mənsəb sahibləri, söz sahibləri olan ruhanilər külli miqdarda ağlagəlməz varidata və böyük gücə müyəssərdirlər. Özünün yaratdığı dini inanc insandan bir addım önə çıxdıg

Dünya gülzar, əhli-dünya insanlar şən, şaqraq idilər. Tərkidünya abidlik həyatı yaşayan ruhanilər və onların "dünyası" digər insanlar üçün bir növ qaranlıq görünürdü. Dünyəviliyə qara görünən ruhanilik yalnız bu dünyada bir rəngi təmsil edən qüvvə ilə daha çox uzlaşdı, daha çox yaxınlaşdı, daha sıx bağlı oldu. O qüvvə qırmızını özündə ehtiva edən çılğın döyüşçü , əskər ruhu, və hər yeri qana boyayan müharibələr idi. Xristian dünyasında bu özünü belə xarakterizə etmiş oldu: kilsə və cəngavərlər, kilsələrə bağlı müxtəlif ordenlər- tamplierlər, prioratlar və s.

XIX əsr Fransız ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Stendal məhz ona daha çox məşhurluq gətirən "Qırmızı və qara" romanında bu mövzuları önə çəkmiş, özünəməxsus, bənzərsiz bir şəkildə psixoloji sarsıntılar və cəmiyyətdə müəyyən mənsəb hərisliyi ilə alovlanan, çılğın ehtiraslara əsir olan, kəskin siyasi-ideoloji fikir ayrılıqlarına mənsub insanların, sərvətin, pulun və ümumiyyətlə dövrün ictimai-siyasi vəziyyətini mükəmməl şəkildə təsvir etmişdir. Stendala görə inqilabi, siyasi hadisələr xalq və dölətdən daha çox ayrı-ayrı fərdlərə təsir göstərir. Roman o dövrkü Fransa burjua inqilabından sonrakı ictimai həyatı, burjua cəmiyyətindəki ictimai əxlaqi çürüklüyü, cəmiyyətdəki ziddiyyəti eyni zamanda da fərdlərin üzərinə köçürülmüş cəmiyyətin sosial və psixoloji vəziyyətini özündə ehtiva edir.

Əsərin baş qəhrəmanı Jülyen xarakter etibarı ilə cəmiyyətdə mənsəb qazanmaq istəyən çılğın bir gəncdir. Napoleonçu Jülyen içində yuva qurmuş bu ehtiraslı napoleonçuluğu zahirə çıxara bilmir,çünki inqilabdan sonrakı Fransada bunu aşkara çıxarmaq bütün cəmiyyətdə nüfuzunu itirmək, olan-qalanından da məhrum olmaq demək idi. Dülgər Sorelin ailəsində dünyaya gələn Jülyen mənsub olduğu sinfə nifrət edir. O az vaxtda yüksək mənsəb əldə etmək üçün alışıb-yananlardan idi. Ailəsinin ənənəvi ağac emalı və dülgərlik peşəsi Jülyenin xarakterinə,onun əldə etmək istədiklərinə yad idi. Napolen dövründə sadə xalq nümayəndələrinin karyera qurub mənsəb sahibi olmasının tək yolu orduya girmək idi. İndi isə zaman dəyişib və cismən cılız, iddiaları isə böyük olan Jülyen üçün bunlar mümkünsüzdü. Ancaq <http://mümkünsüzdü.Ancaq> qoca alay həkiminin ona öyrətdiyi latın dili və kure Şelandan aldığı dini dərslər Jülyenin girdabdan çıxmasının vizit kartı oldu. Cəmiyyətdə ali mənsəb qazanmaq istəyən Jülyenin yeganə yolu ruhani olmaq idi,lakin Jülyen əslində tanrını tanımırdı. Onun tanrısı qara əbaya bürünüb varlı bir insana çevrilmək hissi idi. Jülyen daxilən qırmızı -əskər idi. Bu, hiss olaraq onun ruhuna hakim kəsilmişdi. Jülyen həyatla mübarizədə arzularına çatmaq üçün vuruşurdu. O əslində ruhani libasına bürünüb döyüşürdü. Jülyen həyatla,ətrafındakı aristokrat burjuaziya ilə savaşırdı. Ruhanilik isə onun qalxanı idi. İlk vaxtlar bunu anlamayan sadəlövh,bəsit düşüncəli gənc zamanla daha bitkin,daha mükəmməl birisi olmağa başladı və müdhiş fəndgirliyi onu xeyli irəli apardı.

On səkkiz yaşlı dülgər oğlu vaxtilə qoca alay loğmanından öyrəndiyi latın dili sayəsində cənab Renalın vasitəsiylə parlayır. Əvvəlcə ona cansıxıcı gələn mürəbbilik tədricən onu çox dəyişdiri və o uşaqları sevir. İlk vaxtlarda onda ikrah hissi yaradan,nifrətlə baxdığı xanım Renal tədricən onun üçün o zaman qədər duymadığı bir hissin ünvanı olur. Nifrətdən sevgiyə bir addım məsafənin olduğu aşkara çıxır. M?qs?dimiz <http://çıxır.M?qs?dimiz> əsəri qısa xülasələrlə təqdim etmək deyil. Belə bir möhtəşəm psixoloji romanı hər kəs özü oxuyub öz fəlsəfəsi ilə müzakirə etsə daha yaxşı olar. H?r <http://olar.H?r> kəsin dünyaya, həyata, oxuduqlarına, gördüklərinə və əməllərinə baxış bucağı fərqlidir.

Stendal Jülyenin timsalında

> Stendal Jülyenin timsalında müdhiş bir eqolu gəncin obrazını yaratmışdır. Jülyen eqodur. Ona aşiq olan hər iki qadın-xanım Renal və madmazel Matilda Jülyenin aşiqi,onun əsiridirlər. Hər iki qadının ona dəli kimi bənd olmasının birinci səbəbi Jülyenin onlara qarşı biganəliyidir, və əsrarəngiz qadın qəlbi bununla barışa bilmir. Qarşılarında nə qədər mənsəbli,şöhrətli insanların əyilmələrinə öyrəşmiş bu yüksək elitar təbəqənin gözəl qadınları dülgər oğlunun bu biganəliyinin qarşısında acizdirlər...

müdhiş bir eqolu gəncin obrazını yaratmışdır. Jülyen eqodur. Ona aşiq olan hər iki qadın-xanım Renal və madmazel Matilda Jülyenin aşiqi,onun əsiridirlər. Hər iki qadının ona dəli kimi bənd olmasının birinci səbəbi Jülyenin onlara qarşı biganəliyidir, və əsrarəngiz qadın qəlbi bununla barışa bilmir. Qarşılarında nə qədər mənsəbli,şöhrətli insanların əyilmələrinə öyrəşmiş bu yüksək elitar təbəqənin gözəl qadınları dülgər oğlunun bu biganəliyinin qarşısında acizdirlər. Jülyen bir növ öz şahmat taxtasında onları pat vəziyyətə salır. Jülyen həm stoik, həm də işini bilən manipulyatordur. Bunu təkcə qadınlar üzərində manipulyasiyasında deyil həmçinin arzularındakı qırmızadan-hərbçidən qara mantiyalı keşişə keçiddə də müşahidə etmək olar. O qırmızı alovdur, dəhşətli atəşdir və bu təhlükəli, yandırıbyaxan qırmızı alov arxada yalnız qara bir xərabət buraxır. Əsər bir-birinə zidd müxtəlif obrazlarla zəngindir. Jülyen Sorel içində var olduğu sinfi bərabərsizliyə nifrət edir. İnsanların maskalanmağı, var-

ehtirasa yenilən, iki qadının həyatını məhv etdikdən sonra həqiqətləri əxz edib özünü fəda edən şəxsiyyətin obrazını mükəmməl şəkildə təsvir etmişdir. Yazıçı roman boyu Jülyen kimi istedadlı bir gəncin qısa ömür yolunda şəxsiyyətin formalaşmasında özünü təsdiq etməsində mühitin və zamanın rolunu

ustalıqla canlandırmışdı. "Qırmızı və qara" bəsit eşq oyunlarından ibarət əsər deyil, mükəmməl psixoloji realist bir romandır. Mövzusu həyatdan və qismən də yazıçının öz yaşadıqlarından alınmış bu roman Stendalın ən şah əsəridir. İnsan psixologiyasnı, onun fərd olaraq maddi və mənəvi ehtiyaclarının varlığı necə dəyişdirmək iqtidarında olmasını, sevgi oyunlarını, ikiüzlülüyə qarşı sonsuz nifrəti, pulun insan üzərindəki hakimliyini, eşqin insanı hansı vəziyyətə salmağını, həqiqi eşqin unudulmazlığını, ölməzliyini bu qədər peşəkar, bu qədər çəkici, sirr içində sirr kimi təsvir etmək yazıçının mükəmməl peşəkarlığının təsdiqidir. Tanrının ədalətini təbliğ edən, üzdə özlərini tərkidünyalığa, nəfsani hisslərdən uzaq olmağa "təhkim" edən, saxtakar din xadimlərinin əlində insan həyatı alver predmetinə çevrilir. Sərvət ehtirası qəzəbli atanı belə muma döndərir, ölümə təhkim olunmuş oğlunun pulları acgöz ataya nemət kimi görünür və Jülyen belə deyir: "Pulsuzluq qarşısındakı qorxu, şişirdilmiş, adı insan qəddarlığı olan tamahkarlıq

dövlət hərisliyi, tanrının ədalətindən danışıb ən böyük haqsızlıq edən yaltaq din xadimlərinin ikiüzlülüyü onda ikrah hissi oyadır. Əgər əlində imkanı olardısa o bu saxta quruluşu gərəksiz zadəgan titularını məhv edərdi. Jülyenə görə, "İnqilab bu və digər ictimai quruluşun şıltaqlıqları nəticəsində yaradılmış bütün titulları məhv eyləyir. Hətta bu zaman insan ölümün üzünə dik baxmaq bacarığına görə layiq olduğu yeri tutur. Bu vaxt ağıl da öz qüdrətini itirir..."

Atasının timsalında özü də daxil olmaqla bütün sərvət hərisi olan insanlar bir gün onun gözündə qəpik qədər də dəyər sahibi olmurlar. Jülyen bir gün əsl gerçəyi dərk edir, amma bu gerçəklər onun sonunu gətirir.

Stendal romanda bir zamanlar içində döyüş ruhu olan, lakin miskin, elmə, kitablara maraq yetirən, oxumaq, keşiş olmaq hərisliyi ruhunda kök salan, lakin sonradan ona imkan verəcək ki, mənim vəsiyyət elədiyim üç-dörd yüz luidorla təsəlli tapıb, sakitləşsin. Bir bazar günü, nahardan sonra o bu qızılları veryerli paxıllara göstərəcək. Onun baxışları o paxılların üzündə gəzərək, açıq-aşkar soruşacaq: sizin hansınız bu pulların əvəzində oğlunuzun boynunu gilyotinə qoymağına həvəslə razı olmazdınız? Onun bu fəlsəfəsi həqiqətdən çox uzaq olmasa da, adamı öldürəcək qədər qəddar idi".

Dəhşətlidir, deyilmi?

Jülyen tanrıya inanmırdı və bunu ölümqabağı onun görüşünə gələn artist rahibə və ruhunun bağışlanması üçün dua edənlərə xitabında da aydın sezmək olar: "O, xeyirxah

rahib bizə Tanrıdan danışardı. Amma hansı Tanrıdan?

İncildəki Tanrıdan, qisas həvəsiylə alışıb-yanan xırdaçı

Tanrıdan deyil, Volterin ədalətli, xeyirxah, böyük ürəkli

Tanrısından!"

Əzbər bildiyi Əhdi-Cədidi xatırlayan Jülyeni həyəcan

bürüdü:

- Amma necə ola bilər ki, rahiblər Tanrını bu qədər

urvatdan salandan sonra onun adının əzəmətinə inansınlar.

Tanrıya inanmadığı kimi, ziddiyyətli fikirlər içində azmış Jülyen sevgiyə də inanmır. Lakin bir gün gec də olsa sevdiyinə, sevildiyinə inanır. İki qadınla macara yaşayan Jülyen onların arasında sevgi seçimi edir. O xanım Renalın necə böyük bir məhəbbətlə onu sevdiyini dərk edir, öz acizliyindən, riyakarlığından utanır və ölümü daha üstün tutur. Ölüm Jülyenin kirlənmiş ruhunu təmizləyəcək, onu bu dünyadakı mənəvi əzablardan qurtaracaqdı. İki qadın arasında qalan Jülyen Sorel sonda əsl sevgisinin kim olduğunu çox gözəl anlayır. Matilda ona, o isə xanım Renala pərəstiş edir. Matilda onun xanımı , o isə xanım Renalın aşiqi olur. Xanım Renal onun ülvi eşqi, Matilda isə bioloji arvadı və doğulacaq övladının anasıdır. Hər iki qadın Jülyen üçün fədakarlıq edir. Matilda onun gilyotində vurulmuş başını özü ilə aparıb dağda dəfn edir, dünyanın xərcini çəkərək onun qəbrini düzəltdirir, dünyəvi olaraq Matilda hər nə lazımdırsa edir amma xanım Renal saf, qibtə ediləcək bir şəkildə sevgisinə qovuşur. Jülyenin edamından üç gün sonra övladlarını qucaqlayaraq dünyasını dəyişir. Bir-birinə əks olan ülvi bir məhəbbət. İzah olunmaz məhəbbətlə övladlarını qucaqlamış ana və eyni zamanda da sevdiyi adamın yoxluğuna dözməyib ürəyi onun sevgisi ilə döyünən və əbədi ayrılığa dözməyən sevən qadın və möhtəşəm Stendal zəkasının məhsulu olan dərin psixoloji realist roman. Romanın möhtəşəmliyi insanı içdən titrədir, fərdlərin dərin, çılğın və mürəkkəb psixologiyasını rəngli boyalarla göz önündə canlandırır.